Qurban bayramınız mübarək!

N30-31 (1130) • 30 iyul - 12 avqust 2020-ci il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiyməti razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# İçməli su və meliorasiya problemləri diqqət mərkəzindədir



***İyulun 23-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin yanında su təsərrüfatının vəziyyətinə həsr olunmuş videoformatda müşavirə keçirilib.***
***Dövlətimizin başçısı müşavirəni giriş nitqi ilə açıb. O, deyib:***

- Bu gün biz su təsərrüfatında mövcud olan problemləri müzakirə edəcəyik, görüləcək işlər haqqında danışacağıq. İnfrastruktur layihələri arasında su layihələrinin xüsusi yeri vardır. Biz ölkəmizdə bütün infrastruktur layihələrini ardıcıl şəkildə icra edirik. Bu layihələrin icrası nəticəsində ölkəmiz sürətlə inkişaf edib. Əgər biz bu layihələri icra etməsəydik, bu gün ölkəmizin dayanıqlı inkişafı mümkün ola bilməzdi. Təbii ki, infrastruktur layihələri arasında prioritetlər müəyyən edilməli idi və 2004-cü ildə regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramı qəbul olunanda bu prioritetlər çox açıq şəkildə ortaya qoyuldu.

O vaxt bizim infrastrukturla bağlı problemlər kifayət qədər ciddi idi. Ölkəmizdə enerji qıtlığı mövcud idi. Son illərdə enerji sektoruna qoyulan vəsait, bu sahədə aparılan müasirləşmə imkan yaratdı ki, biz nəinki özümüzü artıq uzun müddət ərzində elektrik enerjisi ilə təmin edirik, eyni zamanda, bizim əlavə generasiya güclərimiz nəticəsində ixrac imkanlarımız da yaranmışdır. Bu ixrac artıq öz coğrafiyasını genişləndirir. Təbii ki, bu sahəyə çox böyük investisiyalar qoyulmalı idi və qoyuldu. Bu gün 30-dan çox elektrik stansiyamız enerji təhlükəsizliyini təmin edir.

Son vaxtlar bu sahədə daha böyük həcmli işlər görülüb və itirilmiş güclərin bərpası məsələləri öz həllini tapıb. Mövcud stansiyalarda təqribən 800 meqavatdan çox itirilmiş güclər bərpa edildi və bu proses davam etdirilir. Yəni, bütün enerji təsərrüfatı müasirləşir.

Əlbəttə ki, o vaxt ölkəmizdə qazlaşdırmanın səviyyəsi çox aşağı idi. Görülmüş işlər nəticəsində bu gün qazlaşdırma ölkəmizdə 96 faizə çatıb. Nəqliyyat infrastrukturu böyük dərəcədə müasirləşib. Davos Ümumdünya İqtisadi Forumunun hesabatında bu sahədə görülmüş işlərə çox yüksək qiymət verilir. Hava nəqliyyatının səmərəliliyinə görə Azərbaycan dünyada 11-ci, dəmir yollarının səmərəliliyinə görə isə 12-ci yerdədir. Avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan 27-ci yerdədir. Bütövlükdə infrastrukturla bağlı olan vəziyyətə görə Azərbaycan dünya miqyasında 34-cü yerdədir.

Təbii ki, bu infrastruktur layihələri arasında içməli su və meliorasiya layihələri öz yerini tapıbdır. Son illərdə bu sahədə də böyük işlər görüldü. Sadəcə olaraq, bir neçə rəqəmi ictimaiyyətin diqqətinə çatdırmaq istərdim. Regionların sosial-iqtisadi inkişafına dair birinci Dövlət Proqramının qəbul edildiyi 2004-cü ildə Azərbaycanda içməli su ilə təminat 40 faiz səviyyəsində idi. Bu gün isə bu rəqəm 70 faizə çatıbdır. Bakı şəhərində içməli suyu davamlı şəkildə alan əhalinin sayı 29 faiz idi. Bu gün bu rəqəm təxminən 82 faizə çatıbdır. Regionlarda isə əhalinin içməli su ilə əhatə dairəsi cəmi 9 faiz idi. Bu gün bu rəqəm 63 faizdir. Bu, doğrudan da tarixi nailiyyətdir.

Son illərdə Azərbaycanda həyata keçirilən nəhəng su layihələri vəziyyəti tamamilə müsbət tərəfə dəyişmişdir. Mən onların arasında Oğuz-Qəbələ-Bakı su kəmərini xüsusilə qeyd etmək istərdim. Bu kəmərin çox böyük əhəmiyyəti var. İlk növbədə, böyük həcmdə təmiz içməli su Bakı şəhərinə çatdırılır.

Bu, yeganə layihə deyil. Hesab edirəm ki, Taxtakörpü su anbarının tikintisi tarixi layihədir. Çünki bu anbarın su tutumu kifayət qədər böyükdür - 270 milyon kubmetr. Eyni zamanda, Taxtakörpü su anbarından Ceyranbatan su anbarına qədər yeni beton kanalı tikilibdir. Digər böyük layihə Ceyranbatan su anbarının yenidən qurulması və müasir təmizləyici qurğuların inşa edilməsidir.

Təbii ki, mən Şəmkirçay su anbarının əhəmiyyətini də qeyd etməliyəm. Bu gün Şəmkirçay su anbarı bizim su resurslarının yığılmasında və bölüşdürülməsində xüsusi rol oynayır. Bu anbarın su tutumu 165 milyon kubmetrdir və qərb zonasının bir neçə rayonu bu imkanlardan faydalanır, orada əkin sahələri genişləndirilir. Beləliklə, Taxtakörpü şimal zonasının, Bakının, Şəmkirçay qərb bölgəsinin su ilə təminatında mühüm rol oynayır.

Bununla paralel olaraq, son illərdə cənub zonasında yerləşən Göytəpə və Tovuzçay su anbarları da inşa edilib. Son 15 il ərzində yaradılmış böyük su anbarlarının həcmi 470 milyon kubmetrdir.

İçməli su layihələrinə gəldikdə, bu layihələrin xüsusi əhəmiyyəti var. Mənim təşəbbüsümlə bu layihələr ardıcıl olaraq icra edilir. Bu gün bizim əksər şəhərlərimizdə içməli su və kanalizasiya layihələri icra olunub.

Qeyd etdiyim məsələlər birmənalı şəkildə göstərir ki, içməli su və meliorasiya problemləri nəinki diqqət mərkəzindədir, bu problemlərin həlli istiqamətində çox böyük işlər görülüb. Ancaq keçən il yaşanan quraqlıq onu göstərdi ki, biz bu böhranlı vəziyyətə hazır deyilik. Böhranlı vəziyyətdə nə etməyin lazım olduğunu aidiyyəti qurumlar düzgün müəyyən edə bilməyiblər.

Eyni zamanda, su resursları ekoloji tarazlığa, kənd təsərrüfatının inkişafına çox böyük təsir göstərir. Biz kənd təsərrüfatımızı intensiv yollarla inkişaf etdirməliyik və buna nail olmaq üçün kifayət qədər su mənbələrimiz olmalıdır və bu, var. Sadəcə olaraq, əgər, dəhşətli dərəcədə bu itkilər olmasaydı, biz mövcud su resursları ilə özümüzü tam təmin edə bilərdik. İndi bu məsələ araşdırılır, bəzi hallarda itkilər 40 faizdir və 50 faizə çatır, bu, dözülməzdir. Biz suyu itiririk. Beləliklə, o, əkin sahəsinə, insanların evinə çatmır, əksinə, torpaqlara ziyan vurur. Bizim indi ən çox əməktutumlu sahələr taxılçılıq və pambıqçılıqdır. Pambıqçılıq, ümumiyyətlə, su olmadan inkişaf edə bilməz. Pambıqçılıqda təqribən 200-300 min adam işləyir, öz ailə büdcəsini təmin edir. Biz müasir texno-

# Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev regionlara səfər edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da Qobustan rayonuna səfərə gəlib.
İyulun 29-da Qobustanda koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxananın açılışı olub.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Bakı-Şamaxı-Muğanlı-İsmayıllı-Qəbələ avtomobil yolunun 131,5-ci kilometrindən 215-ci kilometrinə qədər olan hissəsinin yenidən qurulması layihəsi ilə tanış olub.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsmayıllıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "DOST Evi" Yaradıcılıq, Sərgi və Satış Mərkəzinin təməlinin qoyulması mərasimində iştirak edib.
Əmək və Əhalinin Sosial Müdafiəsi naziri Sahil Babayev dövlətimizin başçısına mərkəz barədə məlumat verib.

* * *

İsmayıllı rayonunun Muğanlı-İsmayıllı (30 km)-Təzəkənd-Ağbulaq-Qoşakənd avtomobil yolu (8 km) yenidənqurmadan sonra istifadəyə verilib.
Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yolun açılışında iştirak edib.
Tədbir çərçivəsində Qaraməryəm-İsmayıllı-Şəki (27 km)-Quşencə-Zoğallıq avtomobil yolunun da təqdimatı olub.

* * *

İsmayıllıda koronaviruslu xəstələrin müalicəsi üçün nəzərdə tutulan modul tipli xəstəxananın açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev açılışda iştirak edib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyulun 29-da 320 şagird yerlik Balakən şəhər Uşaq İncəsənət Məktəbinin yeni binasının və Balakən regional "ASAN xidmət" mərkəzinin açılışında iştirak edib.

* * *

Azərişıq" Açıq Səhmdar Cəmiyyətinin Balakən Avtomatik İdarəetmə və Nəzarət Mərkəzi istifadəyə verilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

* * *

İyulun 29-da Prezidenti İlham Əliyev yenidən qurulan Balakən-Qazbinə-İtitala avtomobil yolunun açılışında iştirak edib. Tədbir çərçivəsində Balakən-Hənifə-Gülüzanbinə avtomobil yolunun da təqdimatı olub. Prezident İlham Əliyev iyulun 29-da Balakən rayonunda "Bal meyvə" bağçılıq təsərrüfatı ilə tanış olub.



logiyaların, o cümlədən müasir suvarma sistemlərinin mövcud olduğu taxılçılıq təsərrüfatlarında hər hektardan təqribən 70-80 sentner buğda alırıq. Bu, inkişaf etmiş ölkələrin səviyyəsindədir.

Biz indi taxılçılıqda müasir texnologiyaların tətbiq edilməsi ilə mövcud əkin sahələrində, bəlkə də bir qədər az əkin sahələrində daha çox məhsul istehsal edə bilərik, idxaldan daha az asılı ola bilərik. Su həm həyatdır, həm inkişafdır, həm təhlükəsizlikdir. Ona görə bu məsələlərə laqeyd yanaşmaq olmaz.

Ona görə mən vəziyyəti tam təhlil edərkən bu il aprel ayında xüsusi komissiya yaratmışam. Artıq komissiya üç aydır ki, işləyir və bu müddət ərzində gördüyü işlər, mövcud problemlərlə bağlı müntəzəm olaraq mənə məlumat verib. Komissiyanın rəhbəri Baş Nazirin müavini Şahin Mustafayevdir.

Bəzi hesablamalara görə, əgər operativ tədbirlər görülməsə, 2030-cu ildə ölkəmizdə səhralaşma prosesi sürətlə gedəcək. Ona görə bu münasibətə son qoyulmalıdır. Qüsurlara yol verən, bu məsələyə laqeyd yanaşan bütün vəzifəli şəxslər cəzalandırılmalıdır.

**Baş Nazirin müavini Şahin Mustafayev:** - Su ehtiyatlarının az olması, iqlim dəyişməsi, orta temperaturun yüksəlməsi, əsasən qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatlarının, çaylarda sululuğun və yağıntıların əhəmiyyətli dərəcədə azalması, digər tərəfdən ölkə iqtisadiyyatının, o cümlədən kənd təsərrüfatının inkişafı, əkin sahələrinin, suvarma və içməli su təchizatı üzrə şəbəkələrin genişləndirilməsi nəticəsində suya tələbatın artması son illərdə ölkədə su çatışmazlığını şərtləndirmişdir. Müşavirədə bütün bunlar son nəticədə su təhlükəsizliyi məsələsini ən aktual mövzulardan birinə çevirmişdir. Bu baxımdan, xüsusilə cari ildə ölkənin su ehtiyatları sahəsində gərgin vəziyyət yaranmışdır. Hazırda əsas su anbarlarında 20,5 milyard kubmetr tutuma qarşı əvvəlki illərdən kəskin aşağı səviyyədə - cəmi 11,1 milyard kubmetr su mövcuddur ki, bunun da 8,6 milyard kubmetri ölü həcmdir.

Su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə müvafiq Sərəncamımızla komissiya yaradılmışdır. Məhdud su ehtiyatlarının ədalətli, optimal və proporsional bölgüsü prinsipi əsasında 580 mindən çox əkin sahəsi üzrə suvarma qrafikləri tərtib olunmuşdur.

Bu gün su təsərrüfatı sahəsində uçot və nəzarət işinin təkmilləşdirilməsi həlli vacib məsələ kimi qarşımızda durur. Suyun mənbədən götürülməsindən son istehlakçıyadək bütün mərhələlər üzrə uçotun və dəqiq qiymətləndirmənin aparılması ilə bağlı təxirəsalınmaz tədbirlər həyata keçirilməlidir. Bu məqsədlə operativ tədbirlərlə yanaşı, ölkə üzrə ilk dəfə su təsərrüfatı balansı tərtib edilmişdir. Prioritet məsələlərdən biri də energetika sahəsində su ehtiyatlarından səmərəli istifadə ilə bağlıdır. Məlum olduğu kimi, suvarma dövrü əsasən beş aydır: may-sentyabr ayları. Xüsusi əhəmiyyətli su anbarlarında qeyri-suvarma dövründə, o cümlədən qış aylarında su ehtiyatlarının artırılması məqsədilə istilik elektrik stansiyalarının soyutma sistemlərinin müasirləşdirilməsi, bu stansiyalarda soyutma məqsədilə sudan qənaətli istifadənin təmin edilməsi, ölkə üzrə elektrik enerjisi tezliyinin daha optimal formada tənzimlənməsi imkanları araşdırılmalıdır.

Bunlarla yanaşı, aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab edirik:

*Kür-Araz ovalığında yerləşən və içməli su tələbatı Kür çayından təmin edilən yaşayış məntəqələrinin su təchizatının alternativ mənbələr hesabına təmin edilməsi ilə bağlı təkliflərin hazırlanması;*

*Qrunt sularından, təmizlənmiş tullantı sularından və Xəzər dənizinin suyundan istifadə imkanının araşdırılması;*

*Subartezian və artezian quyularının sifarişi, layihələndirilməsi, qazılması və istismarı qaydalarının hazırlanaraq təsdiq edilməsi;*

*Kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən suvarmada müasir texnologiyaların tətbiqinin təşviq olunması;*

*Suvarma suyundan güzəştli istifadə ilə bağlı yeni mexanizmin hazırlanması.*

**Kənd Təsərrüfatı naziri İnam Kərimov:** - Quraqlıq və su çatışmazlığının təsir etdiyi ən böyük sahələrdən biri də kənd təsərrüfatıdır. Ölkə üzrə su istehlakının 80 faizə yaxını məhz kənd təsərrüfatının payına düşür.

Bu ilin əvvəllərindən havaların quraq keçməsi, yağıntıların miqdarının azalması, əkin balansının əsas hissəsini təşkil edən taxılın becərilməsində problemlər yaradıb. Mart-aprel aylarında havaların yağıntılı olması vəziyyəti qismən xilas etsə də, bir sıra, xüsusilə aran rayonlarında 100 min hektar ərazidə taxıl sahələrinə ziyan dəymişdir. Suvarma problemi yaşanmayan digər rayonlarda məhsuldarlıq əvvəlki illə müqayisədə xeyli yüksək olsa da, quraqlıq keçmiş ərazilər səbəbindən bu il taxıl üzrə ümumi nəticə ötən ilə nisbətən 5,5 faiz az olmuşdur. Bu il 1 milyon 800 min ton buğda yığılıb və buğda istehsalı təxminən 1 milyon 900 min ton ətrafında gözlənilir. Bu günə faktiki yığılmış ərazilərdən məhsuldarlıq 31,3 sentner olub.

Quraqlıq və su çatışmazlığı pambıq bitkisinin becərilməsinə də öz təsirini göstərməkdədir. Cari ildə 100 min hektardan çox sahədə pambıq əkini həyata keçirilib. Pambıq əkinləri üzrə 7 min hektar sahədə birinci vegetasiya suvarması hələ də başa çatmayıb.

Pambığın suvarılmasında ən kritik faza ikinci vegetasiya suvarmasıdır. Keçənilki dövrdə bugünkü tarixə biz 23 min hektar az ikinci suvarma həyata keçirmişik. Hazırda pambığın suvarılması üzrə əsas problemlər daha çox Saatlı, Sabirabad, Biləsuvar, Zərdab, Salyan və Neftçala rayonlarında müşahidə olunur.

Hazırda aqrar sektorda təsərrüfat fəaliyyətinin ən qızğın dövrüdür. Növbəti aylarda da su təminatı ilə bağlı çətinliklərin davam etməsi gözlənilir.

Hazırda su çatışmazlığı fermerləri narahat edən ən aktual problemlərdəndir. Mövcud su ehtiyatlarının ədalətli bölünməsi üçün 53 rayon üzrə 580 mindən çox suvarma qrafiki tərtib olunub.

**Fövqəladə Hallar naziri Kəmaləddin Heydərov:** Azərbaycan Respublikasının su ehtiyatlarının qiymətləndirilməsi layihəsi haqqında 2014-cü ildə Niderlandın "Deltares" şirkəti ilə müqavilə bağlanmışdır və ölkəmizin bütün su balansının çıxarılması, həm yeraltı ehtiyatların, həm də yerüstü çayların, göllərin təhlili prosesi başlanmışdı. Təəssüflər olsun ki, 2014-cü ildən sonra bu layihənin icrası müəyyən maliyyə çatışmazlıqları səbəbindən dayandırılmışdır.

Bu dövr ərzində Bakı və Abşeron yarımadasının bütün yeraltı, yerüstü suları və gölləri haqqında təhlil hazırlanmış və müvafiq orqanlara göndərilmişdir. Amma bizim ölkə üzrə digər çaylarımızın, göllərimizin tam təhlili əlavə vəsait tələb edir və qısa müddətdə başa çatdırıla bilər. 2017-ci ildən bu layihənin həyata keçirilməsi dayandırılmışdır.

Həm hidrotexniki qurğuların, həm göllərin və su anbarlarının vəziyyəti haqqında müvafiq qurumlara ünvanladığımız məktubların bir qismi öz həllini tapmışdır. Azərenerji tərəfindən Mingəçevir gölünün beton hissəsinin su-torpaq yuyulmasından qorunması üçün işlər tamamilə başa çatdırılmışdır. Yuxarı Qarabağ kanalının bütün layihə işləri hazırlanıb verilmişdir.

Suyun uçotunun təkmilləşdirilməsi üçün müasir ölçmə vasitələrinin tətbiq edilməsi. Bu prosesi biz başlamışıq, yəqin ki, qısa müddətdə başa çatdıracağıq. Biz Azərbaycan Milli Elmlər Akademiyasının Geologiya İnstitutu ilə bu istiqamətdə bəzi yerlərdə araşdırma aparmışıq. Bizim də əsas su ehtiyatlarımızı təmin edən Mingəçevir, Varvara, Şəmkirçay və digər anbarlardır. Ona görə də biz gələcək üçün mövcud anbarların faydalı həcmini artırmaqdan ötrü Varvara, Türyançay və Əliçay çaylarını təmizləməliyik.

Bir də, bildirməliyəm ki, dövlət əhəmiyyətli Şəmkir, Yenikənd, Mingəçevir, Varvara və Ceyranbatan hidroqovşaqlarının texniki təhlükəsizliyinin qiymətləndirilməsi məqsədilə Yaponiyanın "Kahişa" şirkəti ilə 2017-ci ildə bağlanmış müqavilənin həyata keçirilməsi üçün vəsaitin ayrılması lazımdır.

**Prezident İlham Əliyev:** Bəs nə üçün bu müqavilə icra edilməyib? 2017-ci ildə bağlanıb, üç il keçib, niyə icra olunmayıb?

**Kəmaləddin Heydərov:** Deməli, 9 milyon dollar vəsait çatışmadı. Ona görə də bu layihənin icrası dayandırıldı.

**Maliyyə naziri Samir Şərifov:** Bu vəsaitin ayrılması ilə bağlı Nazirlər Kabinetinin xüsusi bir qərarı olub. Həmin qərara əsasən, bu vəsaitin bir qismi Fövqəladə Hallar Nazirliyi tərəfindən 2 milyon dollar məbləğində həll edilməli idi. Yerdə qalan hissəsi ilə "Azərenerji" Səhmdar Cəmiyyəti tərəfindən görülməli idi. Lakin naməlum səbəblərə görə bu məsələlər öz həllini tapmadı.

Prezident İlham Əliyev: Bu, böyük vəsait deyil. Bunu indi yubatmaq olmaz. Belə şeylərə son qoymaq lazımdır.

**Ekologiya və Təbii Sərvətlər naziri Muxtar Babayev:** Bildiyiniz kimi, iqlim dəyişmələrinin təsiri nəticəsində su ehtiyatlarımız son onilliklərdə təqribən 15 faiz azalmışdır. Beynəlxalq iqlim modelləri göstərir ki, 2050-ci ilədək su resurslarımız təqribən daha 15 faizə qədər azala bilər. Əvvəlki dövrlərdə quraqlıq müddəti 2-3 il davam edirdisə, son 8 ildə davamlı quraqlıqlar müşahidə olunur. Yağıntıların azalması Xəzərsahili rayonlar istisna olmaqla, ölkənin bütün regionlarını əhatə edir. Anomal hadisələrin sayı və sel-daşqın proseslərinin təkrarlanması artır. Kür və Qanıq çaylarında sululuq norma ilə müqayisədə 2019-cu ildə 29,2, son 6 ayda isə 45,8 faiz azalıb. Yağıntılar norma ilə müqayisədə 2019-cu ildə 17 faiz, 2020-ci ildə isə 25 faiz az olub. İqlimin inertliyini əsas götürsək, növbəti onillikdə iqlim norma ilə müqayisədə daha 8 faiz azalmanı ehtimal etmək olar. Hər il mütəmadi olaraq hidrometeoroloji xidmət çaylarda sululuq üzrə proqnozları hazırlayır və müvafiq qurumlara təqdim olunur.

**Prezident Administrasiyasının Dövlət nəzarəti şöbəsinin müdiri Kərəm Həsənov:**

- Ölkəmizin su mənbələri üzrə ehtiyatları təxminən 35,6 milyard kubmetr qiymətləndirilir. Axırıncı dəfə ölkə üzrə yerüstü su ehtiyatlarımız 1970-ci ildə, yeraltı su ehtiyatlarımız isə 1980-ci illərdə qiymətləndirilmişdi. Biz hazırda su sistemi ilə bağlı məlumatları bu qiymətləndirmələrdən əldə edirik. Təxminən 40-50 il keçməsinə baxmayaraq, su ehtiyatlarımız yenidən qiymətləndirilməmişdir. Eyni zamanda, 35,6 milyard kubmetr su ehtiyatından il ərzində içməli su üçün təxminən orta hesabla 653 milyon kubmetr su götürülür. Hazırda isə 15 faiz su ehtiyatlarının azalması bu rəqəmlərə təsir etmişdir . Mövcud su ehtiyatlarına içməli su 2,2 faiz nisbətindədir. Amma buna baxmayaraq, bu rəqəmlər suyun təminatının azalmasına çox cüzi təsir edir.

Suvarma sistemi ilə bağlı isə onu demək istərdim ki, orta hesabla ölkə üzrə illik 6,3 milyarddan 6,7 milyard kubmetrə qədər su təminatı mövcuddur. Ölkə üzrə orta hesabla 2017-2019-cu illərdə, əslində, il ərzində 3,2 dəfə suvarma olmalıdır. Bu, "Meliorasiya və Su Təsərrüfatı" Açıq Səhmdar Cəmiyyətinin verdiyi məlumatlardır. Əslində, faktiki vəziyyətdə isə bir qədər fərqli rəqəmlər görünür. Yəni, 28 rayonda 671 min 264 hektar kənd təsərrüfatı torpaqlarının 50 faizində suvarma ortalama həddən aşağı olmuşdur. Beləliklə, biz həm kənd təsərrüfatının suvarma sistemində, həm də əhalinin içməli su ilə təminatı sistemində bu məsələlərə fikir veririk və Sizin tapşırığınızla nəzarətə götürmüşük.

**Prezident İlham Əliyev:** Elektron su təsərrüfatı informasiya sistemi haqqında artıq burada deyildi. Bildiyimə görə, indi əsasnamə hazırlanır. Bunu da tezləşdirin, tezliklə təqdim edilsin, imzalansın. Bu, elektron kənd təsərrüfatı informasiya sistemi ilə inteqrasiya şəklində artıq vahid bir informasiya sistemi kimi olacaq.

Bir məsələ də su ehtiyatlarının qiymətləndirilməsi ilə bağlıdır. Bu qiymətləndirmə aparılarkən, eyni zamanda, müəyyənləşdirilməlidir ki, bizim su ehtiyatlarımızın artırılması ehtimalı nə dərəcədə realdır, bu, mümkündür, yoxsa yox. Oğuz-Qəbələ-Bakı su kəmərinin tikintisini də sovet vaxtında əldə olunmuş bilgilər əsasında icra etmişik.

Torpaq kanalların yenidən qurulması ilə bağlı artıq təklif verildi. İndi qısamüddətli və uzunmüddətli proqram tutulmalıdır. Dediyim kimi, xarici mütəxəssislər, yeni texnologiyalar cəlb olunmalı, pilot layihələr icra edilməlidir. Verilən təkliflər arasında ilkin mərhələdə 22 kanalın yenidən qurulması nəzərdə tutulur. Ona görə bu kanallar yenidən necə qurulacaq, bax, əsas məsələ bundadır. Əgər buna nail ola bilsək, biz təqribən 300 min hektara yaxın əkin sahəsinin su ilə təminatını tam həll edəcəyik. Mil-Qarabağ kollektorunun yenidən qurulması məsələsi də gündəlikdədir.

Biz sudan elektrik stansiyalarının fəaliyyətində də istifadə edirik və əlbəttə, həm su elektrik stansiyalarının, eyni zamanda, istilik elektrik stansiyalarının fəaliyyəti, əlbəttə ki, sudan asılıdır. Çünki bu soyutma işləri olmadan istilik elektrik stansiyaları fəaliyyət göstərə bilməz. Bu yaxınlarda Mingəçevir İstilik Elektrik Stansiyasının yenidənqurmadan sonra açılışı olmuşdur və stansiya 2400 meqavat elektrik enerjisi generasiya edir. Əlbəttə ki, bu sahədə soyutma məqsədilə sudan qənaətlə istifadə edilməlidir. Eyni zamanda, Xəzər dənizinin səviyyəsi aşağı düşüb. Bu, ilk növbədə, Sumqayıt İstilik Elektrik Stansiyasının fəaliyyətinə çox mənfi təsir göstərir, o da 525 meqavat gücündə olan stansiyadır. İstisna edilmir ki, "Şimal-1", "Şimal-2" elektrik stansiyalarının soyutması ilə bağlı problemlər yarana bilər. Orada da ümumi generasiya gücü 800 meqavatdır. İndi Azərenerjinin sədri məlumat versin, Sumqayıt Elektrik Stansiyasının soyudulması üçün estakada tikilir və bu tikinti nə yerdədir və nə vaxt başa çatacaq? Ümumiyyətlə, Xəzərin suyunun aşağı düşməsi ilə bağlı hansı qabaqlayıcı tədbirlər görülür ki, biz özümüzü bu vəziyyətdən sığortalaya bilək.

**"Azərenerji" Açıq Səhmdar Cəmiyyətinin prezidenti Baba Rzayev:** - Xəzərin səviyyəsinin son ildə bir metr yarımadək aşağı düşməsi nəticəsində sahilin "ləpədöyən" deyilən hissəsindən soyutma sistemi üçün dövrə nasoslarının suyu gətirdiyi, qəbul etdiyi bir ərazi seçilmişdi ki, bu, doğru deyildi. Ona görə biz vəziyyəti Sizə məruzə etdik. Sizin göstərişinizlə bütün tədbirlər planı həyata keçirildi və dənizə doğru 750 metr estakadanın tikintisi artıq başa çatıb. Bu ayın sonunda 6 ədəd çox güclü nasos artıq Bakıda olacaq. Biz oktyabrın axırı, noyabrın əvvəllərində Sumqayıtda yaranan su probleminin həllinə nail olacağıq. O ki qaldı, dənizin səviyyəsinin düşməsindən itirdiyimiz elektrik enerjisinə, son həftənin reallığı odur ki, bu gün əgər havaların isti keçməsinə görə texniki göstərici olaraq biz qoyulmuş gücdən 8 faiz itiririksə, 8 faiz də səviyyənin aşağı düşməsindən itiririk. Hazırda Sumqayıt elektrik stansiyası 420-430 meqavat gücündə fəaliyyət göstərir. Yəni, bunun təsiri bu qədərdir. Bu, maya dəyərinə də çox ciddi təsir edir. Eyni problem, demək olar ki, "Şimal-1", "Şimal-2"də də var. Biz ancaq dərinləşdirici lilsovuran qurğulardan istifadə edərik. Hələlik orada da 8-10 faiz itki var. Cəmi 800 meqavatlıq elektrik stansiyası - 400 "Şimal-1" və 400 "Şimal-2". "Şimal-1"in rotorunun köhnə olması səbəbindən biz orada 30 meqavat itiririk, qalır 370. Amma havanın və dənizin təsirindən bu gün 320 meqavatla işləyir. Dənizin səviyyəsinin aşağı düşməsi nəticəsində biz "Şimal-2"də də təxminən 30 meqavat itiririk. Bu gün cəmi 670 meqavatla tam stabil gücdə çalışırıq.

**İçməli su layihələri ilə bağlı məlumat verən "Azərsu" Açıq Səhmdar Cəmiyyətinin sədri Qorxmaz Hüseynov:** - Son zamanlar iqlim dəyişikliyi ilə bağlı regionlarda, bir neçə rayonda suyun verilişində fasilələr yaranmışdır. Bu, əsasən Xızı, Altıağac rayonlarında su mənbələrində suyun azalması ilə bağlı olmuşdur. Eyni zamanda, Zaqatala şəhərində dağ çaylarında baş verən daşqınlar zamanı mənbədə bulanıqlıq artdığına görə şəhərə suyun verilişində fasilələr yaranır. Alternativ su mənbələrinin tapılması mühüm məsələlərdir. Zamanında bu layihələr hazırlanarkən ehtiyatlar qiymətləndirilib, amma iqlim şəraitinin bu cür dəyişməsi ola bilsin ki, nəzərə alınmayıb. Lakin biz qabaqcadan bu dinamikaları nəzərə alaraq, həm suyun keyfiyyət parametrlərində, həm həcmində bir neçə rayonla bağlı məsələ qaldırdıq və Sizin Sərəncamınızla Lerik, Qobustan, Ağstafa, Gədəbəy, Şamaxı və Tovuz rayonlarında bu işlər həyata keçirildi. Şamaxı və Tovuz şəhərlərində hələ bu layihələr tam başa çatmasa da, birinci mərhələdən sonra şəhərə suyun verilişində problemlər nisbətən aradan qaldırıldı. Lakin digər rayonlarda isə həmin alternativ mənbələr hesabına suyun verilişində heç bir problem yaranmamışdır.

Uçqun bulağı Xaçmaz şəhərinin qədim su mənbəyidir. Həmin mənbədə suyun həcmi çox olduğundan onu Bakı xəttinə qoşmuşduq, hazırda yaranan vəziyyətdə iki məhəllədə suyun verilişində fasilə, yəni, suyun həcmində azalma müşahidə edildəndə biz həmin suyu Xaçmaz şəhərinə birləşdirdik. Lakin cənab Prezident, təkcə Xaçmaz şəhəri deyil, bir çox şəhərlərdə - Şamaxı, Qax, Qəbələ və sair şəhərlərdə, xüsusilə beynəlxalq maliyyə qurumlarının vəsaiti ilə layihələndirilən rayonlarda layihələr 2009-2012-ci illərə əsasən hazırlanıb. Bu layihələr hazırlanarkən şəhərin mövcud ərazisi nəzərə alınmışdır. Amma sonradan bildiyiniz kimi, ölkəmizdə Abşeron yarımadasında, regionlarda şəhərlər sürətlə böyüyür və bu böyümə nəticəsində təkcə Şamaxıda min ev bu gün layihədən kənarda qalıb. Yəni, layihə zamanı bu evlər yox idi. Xaçmazda 1450, Qaxda 682, Qəbələdə 500 ev və sair. Belə hallar bir çox rayonlarda var və biz bununla bağlı yeni layihələr hazırlayırıq ki, gələcəkdə investisiya proqramı çərçivəsində bu kəndlərin problemi həll olunsun.

**Prezident İlham Əliyev:** Axı, hər dəfə mən açılışlarda olanda siz mənə məlumat verirdiniz ki, bu layihələr elə hazırlanıb ki, 2030-cu ilə qədər artan əhalini nəzərə alsın. İndi isə deyirsən ki, əhali artıb 1000 ev orada tikilib, ona görə su çatmır. Bəs necə ola bilər ki, 30-cu ilə qədər siz bunu planlaşdırırdınız ki, indi 600 ev tikilib və su çatmır?

**Qorxmaz Hüseynov:** Bizim suyun hesabatı 2030-cu il nəzərə alınmaqla, əhali artımı nəzərə alınmaqladır. Amma infrastruktura ayrılan vəsait mövcud ərazi üçün nəzərdə tutulduğundan yenidən maliyyələşib, yenidən qurulmalıdır, xüsusilə beynəlxalq maliyyə qurumları tərəfindən maliyyələşən rayonlarda. Çünki beynəlxalq maliyyə qurumları bu layihələrə əlavə vəsait ayırmayıb.

Prezident İlham Əliyev: Onlar ayırmayıb, onda müraciət edəydiniz hökumətə, biz dövlət investisiya proqramından vəsait ayırardıq. Bəs yaxşı heç kim bilmir ki, yeni evlər tikilir, Azərbaycanın əhalisi artır və artacaq? Hər dəfə mənə deyirdiniz ki, 2030-cu ilə qədər hər şey nəzərdə tutulub - mənbə də, infrastruktur da.

**Şahin Mustafayev:** Cənab Prezident, biz hələlik bunu detallarla araşdırmamışıq, amma tapşırığınızla biz hər rayon üzrə xüsusilə yarımçıq qalan rayonlar üzrə, indidən araşdırmalıyıq ki, dediyiniz kimi 10 il, 15 il müddətində tam təmin olunsun.

**Prezident İlham Əliyev:** Bizim bir məsələmiz də narahatlıq doğurur. Bu da çaylarboyu yerləşən kəndlərdə modul tipli təmizləyici qurğuların vəziyyətidir. Çünki mənə yerlərdən məlumat gəlir ki, bəzi hallarda bu qurğular işləmir. Bu qurğular vaxtilə Ekologiya və Təbii Sərvətlər Nazirliyi xətti ilə quraşdırılmışdı. Səhv etmirəmsə haradasa 400-ə yaxındır, yaxud da 400-dən çox belə qurğu quraşdırılmışdır. Amma sonra bəzi məlumatlara görə, bunların istismar müddətində buraxılmış səhvlər, eyni zamanda, burada nəzarətsizlik nəticəsində bu qurğular ya sıradan çıxmışdır, ya da, onlar öz keyfiyyətini itirmişdir. Bir sözlə, bu məsələ ilə bağlı çox ciddi təhlil aparılmalıdır və mənə məruzə edilməlidir.

Müşavirənin yekunu olaraq, Prezidentin Sərəncamı hazırlanmalıdır. Bütün tapşırıqlar orada yer almalıdır, eyni zamanda, proqram artıq imzalamağa hazır olmalıdır. Hesab edirəm ki, bütün bu işlərdə aidiyyəti qurumlarla yanaşı, ictimaiyyət nümayəndələri də iştirak etməlidir.

Təbii ki, bütün bu işlər böyük vəsait tələb edir. Ona görə hökumət və aidiyyəti qurumlar, Maliyyə Nazirliyi, İqtisadiyyat Nazirliyi, digər qurumlar xərclər smetasına çox dəqiqliklə baxmalıdırlar. Qətiyyən imkan verməmək olmaz ki, xərclər süni şəkildə şişirdilsin. Bütün icra ediləcək layihələr açıq tender əsasında görülməlidir. Çünki bəzi hallarda bizdə korporativ maraqlar üstünlük təşkil edir. Elə hallar var ki, bir və ya bir neçə şirkət bütün tenderlərdə qalib gəlir. Əlbəttə, elə layihələr var ki, bunu ancaq təcrübəsi olan və böyük layihələrdə iştirak edən şirkətlər icra edə bilər. Bu, təbiidir. Ancaq bu layihələrlə bağlı bir çox sahələrdə kiçik, orta həcmli, o qədər də böyük peşəkarlıq, kvalifikasiya tələb etməyən layihələr də olacaqdır, kontraktlar da olacaqdır. Ona görə yerli sahibkarlar da hazır olsunlar. Çünki biz doğrudan da böyük infrastruktur layihələrinin icrasını davam etdirəcəyik. Ona görə ictimai nəzarət təmin edilməlidir, smetalara, xərc smetalarına çox ciddi dövlət nəzarəti də olmalıdır.

Əlbəttə ki, bütün bu işləri səmərəli şəkildə davam etdirmək üçün vahid idarəetmə mexanizmi işlənməlidir. Bu tapşırığı da mən verirəm. Bunu da hazırlayın ki, bundan sonra bu işlər ancaq koordinasiyalı şəkildə görülsün - komissiya, aidiyyəti qurumlar. Bu gün su təsərrüfatında fəaliyyət göstərən dörd qurumumuz var - "Azərsu", "Meliorasiya və Su Təsərrüfatı" Səhmdar Cəmiyyəti, Fövqəladə Hallar Nazirliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Ona görə bu qurumlar bundan sonra geniş ictimaiyyət, alimlər, ekoloqlar, Prezident Administrasiyası, Nazirlər Kabineti ümumi rəhbərlik etməlidirlər, nəzarət etməlidirlər ki, bütün bu işlər planlı şəkildə həll olunsun, biz yaxın gələcəkdə su təhlükəsizliyimizlə olan problemləri də həll edək. Necə ki, enerji təhlükəsizliyi məsələləri həll olundu, nəqliyyat təhlükəsizliyi məsələləri həll olundu. İndi biz ərzaq təhlükəsizliyi məsələlərinin həllinə yaxınlaşırıq. Su təhlükəsizliyi məsələləri də öz həllini tapmalıdır.

# ZAMAN AZƏRBAYCANIN XEYRİNƏ İŞLƏYİR

## *Prezident İlham Əliyevin yürütdüyü siyasət Ermənistanın beynəlxalq aləmdə işğalçı dövlət kimi tanınması prosesini sürətləndirir, torpaqlarımızın tezliklə azad olunacağı günü yaxınlaşdırır*

Azərbaycan xalqı 32 ildən artıqdır ki, Ermənistanın işğalçılıq siyasəti ilə üz-üzədir. Bunun təəssüf doğuran əsas tərəflərindən biri bu işğalın dünyanın gözü qarşısında baş verməsidir. Avropadakı mövcud münaqişələri qəti şəkildə aradan qaldıran beynəlxalq birliyin Azərbaycanın ərazi bütövlüyünün pozulmasına olan etinasız münasibəti, məsələyə yanaşmada ikili standartlardan çıxış etməsi nə qədər acı olsa da, reallıqdır.

Bir neçə gün əvvəl Ermənistan silahlı qüvvələrinin Tovuz rayonu istiqamətində törətdiyi təxribat, Azərbaycan ərazilərinə soxulmaq cəhdi də beynəlxalq ictimaiyyətin işğalçını öz adı ilə çağırmamasının, ona təzyiq etməməsinin, əksinə bir çox hallarda təəssübünü çəkməsinin nəticəsidir.



### TORPAQ UĞRUNDA ÖLƏN VARSA, VƏTƏNDİR!

Tovuz istiqamətində ordumuzun mövqelərini ələ keçirmək istəyən Ermənistan bu hərəkəti ilə işğalçılıq siyasəti yürütdüyünü və təcavüzkar dövlət olduğunu bir daha təsdiq etdi. Azərbaycan ordusu düşmənin bu niyyətinin qarşısını qəhrəmanlıqla aldı. Əks həmlə və zərbələrlə geri qaçmağa məcbur olan ermənilər xeyli canlı itki verdilər, hərbi texnika sarıdan təlafata məruz qaldılar.

Ermənistanın hərbi təxribatının qarşısının alınması bir sıra məlum həqiqətlərə yenidən işıq saldı ki, bunlardan biri ordumuzun şəxsi heyətinin, hər bir hərbi qulluqçumuzun yüksək vətənpərvərliyi, torpağımız uğrunda canını belə fəda etməyə hazır olmasıdır. Bəli, aprel döyüşlərində olduğu kimi, bu dəfə də torpaqlarımızın keşiyində mətinliklə durmuş vətən övladları düşmənin hücumunun qarşısını qəhrəmancasına aldılar, bu yolda şəhidlik zirvəsinə yüksəldilər.

Döyüşlərdə 12 hərbçimizin, general Polad Həşimovun, polkovnik İlqar Mirzəyevin, yüksək rütbəli zabitlərimizin, gizir və əsgərlərimizin qəhrəmancasına həlak olması hər birimizi kədərləndirdi. Bütün dünya gördü ki, Azərbaycan ordusunun generalı, polkovniki öz əsgərləri ilə birlikdə ön cəbhədə vətənin müdafiəsindədir. Bir daha sübut olundu ki, Azərbaycan ordusunun generalı tabeliyində olan hərbçilərdən özünü fərqləndirmir və qarşıda duran tapşırığı yerinə yetirmək, doğma torpağını müdafiə etmək üçün öz canını hər an qurban verməyə hazırdır. Şəhidlərimizə Allahdan rəhmət diləyirik.

Şəhidlərimizin ruhu rahatdır, çünki qanları yerdə qalmadı. Ordumuz şəhid olan bütün hərbçilərimizin qisasını layiqincə aldı.

Təhlükəsizlik Şurasının iclasında Prezident İlham Əliyev Ermənistanın təxribatının qarşısının qətiyyətlə alındığını bəyan edərək bu barədə dedi: «Ermənistanın növbəti təxribatının qarşısı qətiyyətlə alınmışdır, adekvat cavab verilmişdir. Hərbçilərimizin qisası alınmışdır. Ermənistan tərəfinin bütün cəhdləri iflasa uğradı, Azərbaycan öz dövlət sərhədini qorudu və Ermənistan əsgərləri bir santimetr belə Azərbaycan torpağına keçə bilməmişlər».

Bəli, torpaq əgər uğrunda ölən varsa, vətəndir. Azərbaycan xalqı belə qəhrəman generalları, zabitləri, əsgərləri olan ordumuzla fəxr edir. Bu baxımdan ordumuzun Ermənistanın hücumunun qarşısını almaq üçün həyata keçirdiyi hərbi əməliyyat həm də bütövlükdə cəmiyyətimizdəki yüksək vətənpərvərlik ab-havasını nümayiş etdirdi. Bunu Azərbaycan ordusuna dəstək məqsədilə keçirilmiş aksiyalar da göstərir. İyulun 14-də Bakıda orduya dəstək yürüşü xalqımızın milli həmrəyliyinin, Azərbaycan vətəndaşlarının möhtərəm Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşməsinin təcəssümü idi. Aksiya iştirakçılarının səfərbərlik elan olunması istəyi, ordu sıralarında qulluq etmək niyyəti qürurverici haldır.

Nazirlər Kabinetinin iclasında Prezident İlham Əliyev bu yürüşü xalq-iqtidar birliyini göstərən daha bir mənzərə adlandırdı: «Bir qrup vətənpərvər insan bu işlərə öz münasibətini bildirmək, Azərbaycan Ordusuna və Ali Baş Komandan kimi mənə öz dəstəyini ifadə etmək üçün Şəhidlər Xiyabanına üz tutdu. Mən bu vətənpərvər addımı alqışlayıram. Mənə verilən məlumata görə, bu insanlar uzun məsafəni piyada qət edib və Şəhidlər Xiyabanına gedən müddət ərzində vətənpərvər şüarlar səsləndiriblər - mənim haqqımda, ordumuz haqqında, xalqımız haqqında, Qarabağ haqqında. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı ağır günlərdə bir nöqtəyə vura bilir. Bu, xalq-iqtidar birliyini göstərən daha bir mənzərə idi».

Bu cür tədbirlər göstərir ki, Azərbaycan xalqı torpaqlarının işğalı faktı ilə heç vaxt barışmayacaq və bu mübarizədə ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin yürütdüyü siyasəti dəstəkləyir.

### MİLLİ HƏMRƏYLİYİMİZİN QARŞISINDA BÜTÜN TƏXRİBATÇI PLANLAR İFLASA MƏHKUMDUR

Lakin təəssüflə qeyd etməliyik ki, ordumuza dəstək məqsədilə iyulun 14-ü axşam saatlarında Bakıda keçirilən yürüşə bir qrup təxribatçı tərəfindən sonradan siyasi məzmun verilməsinə, onu nəzarətdən çıxarmağa, neqativ emosiyaların formalaşdırılmasına cəhdlər edilib. Belə ki, Şəhidlər Xiyabanının və Milli Məclisin qarşısına toplaşanların arasından bir qrup gecə saatlarında parlamentin inzibati binasına daxil olub. Milli Məclisin birinci mərtəbəsinə, foyesinə daxil olan təxribatçılar inzibati binada dağıntılar törədib, inventara ziyan vurublar. Polis əməkdaşlarının vaxtında müdaxiləsi nəticəsində bu hərəkətin qarşısı alınıb və aksiya iştirakçıları parlamentin binasından çıxarılıblar.

Unutmaq lazım deyil ki, bu kimi hallar heç bir dövlətə, cəmiyyətə ziyandan başqa heçnə gətirmir. Ötən əsrin 90-cı illərindəki dövr hamımızın xatirindədir. Cəbhədə qızğın döyüşlər getdiyi bir vaxtda AXC-yə bağlı hərbi birləşmələrin Bakıda çıxardıqları oyunlar bütün ölkəni xaotik vəziyyətə sürükləmiş, dövlət idarəçiliyini iflic vəziyyətinə salmış, antiazərbaycançı qüvvələrin öz məkrli planlarını həyata keçirmələri üçün münbit şərait yaratmışdı.

Bir neçə gün əvvəl Bakının Xətai rayonunda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimində Prezident İlham Əliyev də bildirdi ki, 1992-ci ildə parlament binasını zəbt edənlər eyni ssenarini bu dəfə də həyata keçirmək istədilər: «Yəqin ki, siz də xatırlayırsınız 1992-ci ili. Azərbaycan Xalq Cəbhəsinin hərbi çevrilişi parlamentin binasının zəbt edilməsi ilə başlamışdı və orada da başa çatmışdı. O kadrlar da var, yəqin ki, televiziyalar onu göstərəcəklər. O vaxt Azərbaycan hakimiyyəti bunun qabağında dura bilmədi. Çünki cəsarət, qətiyyət göstərmədi, iradə və ən önəmlisi, xalqın dəstəyi yox idi. Ona görə orada bir dəstə adam yığışan kimi, oraya basqın edən kimi hakimiyyət tamamilə dağıldı. Hərə bir tərəfə çəkildi, gizləndi, biri evində, biri harada. Hakimiyyətsizlik hökm sürürdü. Eyni ssenari üzrə bunlar bu dəfə də bunu etməyə çalışırdılar. Eyni ssenari üzrə, parlamentin binasını zəbt etmək, orada öz hakimiyyətini elan etmək».

İyulun 14-dən 15-ə keçən gecə Bakıda baş verənlər göstərdi ki, həmin vaxt olduğu kimi, indi də qaragüruh qruplar ölkəmizi xaosa, anarxiyaya sürükləmək istəyir. Lakin onların Azərbaycanı 1990-cı illərin əvvəllərinə qaytarmaq cəhdləri əbəsdir. Xalqımız bundan sonra da belə bədxah niyyətlərə qarşı sipər olacaq. Digər tərəfdən bu gün Azərbaycan dövləti çox güclüdür və ölkəmizi xoasa, anarxiyaya sürükləmək mümkün deyil. Ən əsası isə cəmiyyətimizdə möhkəm milli həmrəylik var və Azərbaycan xalqı öz rəhbərinin ətrafında sıx birləşib. Ona görə ölkəmizlə bağlı bütün təxribatçı planlar iflasa məhkumdur.

### TOVUZ QƏLƏBƏSİ AZƏRBAYCANIN HƏRBİ QÜDRƏTİNİN MÜHARİBƏ MEYDANINDAKI NÜMAYİŞİ OLDU

Ermənistanın hərbi təxribatının dəf olunması və düşmənə sarsıdıcı zərbənin vurulmasının təsdiq etdiyi başqa bir reallıq isə Azərbaycan ordusunun əzici üstünlüyü və düşmənin istənilən hücumunun qarşısını anında almağa qadir olmasıdır.

Respublikamızda bu gün prioritet elan edilmiş vəzifələrdən biri ordunun gücləndirilməsi, ümumən Silahlı Qüvvələrin bütün qoşun növlərinin döyüş qabiliyyətinin artırılması, modernləşməsidir. Xüsusən döyüş imkanlarının artırılmasında ən son hərbi texnologiyaların tətbiqi diqqət yetirilən əsas məsələlərdəndir. Çünki Ermənistan Azərbaycan torpaqlarını işğal altında saxladığı, status-kvonu qorumağa çalışdığı üçün ordumuz yenilməz və hər bir tapşırığı qələbə ilə yerinə yetirməyə qadir olmalıdır.

Bütün bu məsələləri daim diqqətdə saxlayan Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev ordumuzun güclənməsi məqsədilə gərəkən bütün addımları atır. Bu gün Azərbaycanın dövlət büdcəsində hərbi xərclərin əhəmiyyətli yer tutması da tamamilə məntiqlidir. Bunun nəticəsidir ki, Silahlı Qüvvələrimizin döyüş imkan və qabiliyyətinin artırılması, qoşunların hərtərəfli və fasiləsiz maddi-texniki təminatının keyfiyyətinin yüksəldilməsi məqsədilə yeni silahların, texnikanın, hərbi əmlakın alınması istiqamətində davamlı və ardıcıl işlər aparılır. Qoşunların silah və döyüş sursatı ilə təminatı, uzun müddət istismarda olan silahların və cihazların yeniləri ilə əvəzlənməsi, onların istifadəsinin düzgün təşkili məsələlərinə də xüsusi diqqət yetirilir.

Bütün bunların nəticəsidir ki, Azərbaycan güclü orduya malikdir və Azərbaycan Ordusu Ali Baş Komandanın əmri ilə qarşısına qoyulan istənilən vəzifəni yerinə yetirməyə, o cümlədən torpaqlarımızı işğaldan azad etməyə hazırdır. Azərbaycan vətəndaşları Silahlı Qüvvələrin keyfiyyət və kəmiyyət dəyişikliklərini ordumuzun keçirdiyi təntənəli hərbi paradlarda da görüb. Ölkəmizin hərbi qüdrətinin nümayişi olan belə paradlarda xalqımız və beynəlxalq ictimaiyyət Azərbaycanın mükəmməl hərbi gücə malik olduğuna şahidlik edib. Təsdiq olunub ki, Azərbaycan Ordusu arsenalını ən modern silah və digər hərbi texnika ilə zənginləşdirir. Və dünyanın hərbi baxımdan inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar ölkəmizdə də var. Ən müasir tanklar, piyada döyüş maşınları, zirehli transportyorlar, zenit raket sistemləri, artilleriya qurğuları, reaktiv yaylım atəşi sistemləri, taktiki raket və minaatan kompleksləri, ağır odatan sistemlər, pilotsuz uçuş aparatları və digər texnikalar Azərbaycana öz hərbi potensialını əhəmiyyətli dərəcədə yüksəltməyə imkan verib. O cümlədən hava hücumundan müdafiə sistemimiz





hava məkanımızı inamlı şəkildə nəzarətdə saxlayır. Bu istiqamətdə ordumuzun döyüş qabiliyyəti ən yaxşı silah istehsalçılarının texnologiyaları ilə güclənib.

Təsadüfi deyil ki, xarici reytinq agentliklərinin hesabatlarında da göstərilir ki, Azərbaycan ordusu öz imkanlarına görə Ermənistanı xeyli qabaqlayır. Məsələn, ABŞ-ın “Global Firepower” araşdırma mərkəzinin açıqladığı dünyanın ən güclü ordularının siyahısında Azərbaycan Silahlı Qüvvələri də yer alır. Mərkəzin dünyanın 137 ölkəsinin hərbi gücü ilə bağlı araşdırmasına əsasən, Azərbaycan 52-ci yerdə qərar tutub. “Global Firepower” hesab edir ki, Azərbaycan Ordusu tanklarına görə dünyada 32-ci, zirehli döyüş maşınlarına görə 41-ci, özüyeriyən artilleriyaya görə 27-ci, raket sistemlərinə görə isə 21-ci yerdədir.

Rusiyalı hərbi ekspertlər də vurğulayırlar ki, Dağlıq Qarabağda aktiv hərbi əməliyyatlar başlasa, Ermənistan Azərbaycanın qarşısında duruş gətirə bilməyəcək. Çünki Azərbaycan ordusunun arsenalında olan silah və texnikalar ən mürəkkəb döyüş əməliyyatlarının həyata keçirilməsinə imkan verir. Hansı ki Ermənistan bunun qarşısında çox duruş gətirə bilməz. Məsələn, Moskva Siyasi və Hərbi Təhlillər Mərkəzinin direktor müavini Aleksandr Xramçixin tamamilə doğru qeyd edib ki, Ermənistan ordusu Azərbaycanın pilotsuz uçuş aparatlarının qarşısında acizdir.

2016-cı ilin Aprel hadisələri zamanı cəbhənin Tərtər və Füzuli istiqamətində baş verənlər, yəni erməni hərbi birləşmələrinin təxribatlarının qarşısının alınması zamanı keçirilən hərbi əməliyyatlar Azərbaycan Silahlı Qüvvələrinin gücünün praktik təsdiqi oldu. Naxçıvanda Günnüt kəndinin işğaldan azad olunması və Ermənistanla sərhəddə strateji yüksəkliklərin ələ keçirilməsi Azərbaycan Silahlı Qüvvələrinin 2016-cı ilin aprel qələbəsindən sonra növbəti zəfəri oldu. Xalq Cümhuriyyətinin və ordumuzun yaradılmasının yüzüncü ildönümünə təsadüf edən bu hadisə cəmiyyətimizin xoş ovqatını daha da artırdı, düşmən üzərindəki qələbə gününün o qədər də uzaqda olmadığını göstərdi. Hər birimiz növbəti dəfə ordumuzdakı qalibiyyət əzminin şahidi olduq.

Bu günlərdə Tovuz istiqamətində baş verənlər isə bir daha Azərbaycanın Ermənistan üzərindəki əzici hərbi üstünlüyünü göstərdi. Ən əsası odur ki, bu cür təxribatçılıq əməlləri Ermənistanın öz başında çatlayır və Azərbaycanı sürətlə böyük Qələbəyə yaxınlaşdırır.

### BEYNƏLXALQ İCTİMAİYYƏTİN OBYEKTİV REAKSİYASI ERMƏNİ YALANLARININ QARŞISINI ALIR

Tovuz istiqamətində baş verən yeni hərbi toqquşmalardan sonra Azərbaycanın müttəfiqləri, tərəfdaşları, ayrı-ayrı dövlətlər ölkəmizin müdafiəsinə qalxdılar. Ermənistanın sərhəddəki təxribatı ilə bağlı ən böyük dəstək qardaş Türkiyədən gəldi. Bu ölkənin siyasi və hərbi rəhbərliyi birmənalı və qəti şəkildə, həm də sərt üslubda Azərbaycanı dəstəkləyən bəyanatlar verdi. «Qardaş Azərbaycanı qətiyyən tək qoymarıq. Dağlıq Qarabağ işğal altındadır. Minsk qrupu 25-30 ilə yaxındır ki, bu işi masanın üstündə saxlayıb». Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan jurnalistlərin suallarını cavablandırarkən deyib. Prezident İlham Əliyevlə vəziyyəti müzakirə etdiyini, Azərbaycan hərbi nümayəndə heyətinin Ankaraya səfərə gəldiyini diqqətə çatdıran Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, Türkiyə belə bir vaxtda qardaş Azərbaycanı qətiyyən tək qoymayacaq, sona qədər öz dəstəyini verəcək. “Qafqaz mücadiləsində olduğu kimi, bu gün də Azərbaycanın, azərbaycanlı qardaşlarımızın yanındayıq, yanında olacağıq”, - deyə Rəcəb Tayyib Ərdoğan vurğulayıb.

Daha bir qətiyyətli dəstək dost Pakistandan gəldi. Eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, 57 dövlətin birləşdiyi İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı dəstəkləyən bəyanatlar verdilər. Bu sırada Ukrayna və Moldova dövlətlərinin də mövqeyi təqdirəlayiqdir

Üzvlərinin sayına görə BMT-dən sonra dünyanın ən böyük siyasi təşkilatı olan Qoşulmama Hərəkatının Ermənistanın hərbi təxribatı ilə bağlı qəbul etdiyi kommünike isə 120 ölkənin Azərbaycana dəstəyinin ifadəsi oldu. Sənəddə təşkilata üzv dövlətlər Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyünə birmənalı dəstəyini bildirərək, respublikamızın öz ərazi bütövlüyünü bərpa etmək məqsədilə göstərdiyi səylərlə həmrəy olduqlarını ifadə ediblər. Beləliklə, QH-nin 120 üzv dövləti tərəfindən Ermənistan silahlı qüvvələrinin iki ölkə sərhədində son hərbi təxribatı və Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli və beynəlxalq hüququn norma və prinsiplərinə əsaslanan mövqe ortaya qoyuldu.

İtaliya parlamentinin üzvlərinin Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü pisləyən, eləcə də Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatlarla çıxış etmələri mühüm siyasi hadisədir. İtaliya Senatının və Deputatlar Palatasının çoxsaylı üzvlərinin Ermənistan tərəfindən atəşkəs rejiminin pozulmasını və təxribatın törədilməsini pisləmələri, münaqişənin Azərbaycanın ədalətli mövqeyi çərçivəsində həllini bəyan etmələri ölkəmizin haqq səsinin Avropa məkanında eşidilməsinin təcəssümüdür.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında Ermənistanın hərbi təxribatı ilə bağlı beynəlxalq təşkilatların və dünya ölkələrinin reaksiyasına dair fikirlərini bildirərək deyib: “Budur bizə göstərilən beynəlxalq dəstək. Qeyd etdiyim kimi, digər ölkələr, bəzi Avropa ölkələri öz rəsmi nümayəndələri vasitəsilə Azərbaycana dəstək ifadə etdilər. İndi baxın, görün, Ermənistana kim dəstək göstərdi? Görməmişəm. Burada da təcrid vəziyyətindədir. Çünki hamı bilir ki, Azərbaycan haqlıdır. Bir çoxları bizim fəaliyyətimiz nəticəsində biliblər ki, bu çirkin təxribatı Ermənistan törətmişdir”.

Beləliklə, beynəlxalq ictimaiyyətin obyektiv reaksiyası Ermənistanın təcavüzkar dövlət kimi tanınması prosesini sürətləndirir. Mən bu sırada xarici ölkələrdəki diaspor təşkilatlarımızın təşkilatçılığı ilə keçirilən aksiyaları da xüsusilə qeyd etmək istərdim. Məhz onların bu günlərdə aktiv fəaliyyəti nəticəsində hadisələrlə bağlı obyektiv məlumatlar xarici ölkələrin icitmaiyyətinə çatdırıldı və ermənilərin bu barədə yalan informasiya yaymaq cəhdlərinin qarşısı alındı.

### SON HƏRBİ MƏĞLUBİYYƏTDƏN SONRA ERMƏNİSTANIN DİPLOMATİK MÜSTƏVİDƏ UĞURSUZLUĞU DAHA DA ARTACAQ

Bu günlərdə bir dövlət və ya təşkilat Ermənistanın lehinə olan fikir səsləndirmədi. Yerevanda Ukrayna səfirliyinə qarşı həyata keçirilən iyrənc hadisə isə Ermənistanın siyasi-hərbi rəhbərliyinin son hərbi təxribatdan sonra diplomatik müstəvidə uğursuzluğa məruz qalmasına görə keçirdiyi əsəbin göstəricisi idi.

Ermənistanın təmsil olunduğu Kollektiv Təhlükəsizlik Müdafiə Təşkilatı da onu müdafiə edən hansısa bəyanat vermədi. Məlum olduğu kimi, bu hadisədən sonra təşkilat dərhal toplanmalı və baş vermiş hadisəni dəyərləndirməli idi. İyulun 12-də Ermənistan hadisə ilə bağlı KTMT-yə müraciət etmiş və təşkilatının iclasının çağırılmasını tələb etmişdi. Bu barədə qurumun saytında elan da yerləşdirilmişdi. Lakin qısa müddət sonra elan saytdan silindi və KTMT-nin heç bir iclası keçirilmədi.

Bu hadisə pərt vəziyyətinə düşən Ermənistanın diplomatik müstəvidə növbəti uğursuzluğu oldu. Bir daha sübut edildi ki, vassal Ermənistan üzvü olduğu təşkilatlarda belə ciddi qəbul olunmur. Ən əsası isə Prezidenti İlham Əliyevin Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında qeyd etdiyi kimi, KTMT-nin Ermənistandan başqa bütün üzvləri bizim dostlarımızdır. KTMT-nin üzvü olan Belarus, Tacikistan, o cümlədən türkdilli dövlətlər olan Qazaxıstan və Qırğız Respublikası ilə Azərbaycanın əlaqələrini izah etməyə ehtiyac belə yoxdur. Rusiya Federasiyası ilə Azərbaycan arasında olan əlaqələr isə son illərdə daha da inkişaf edib, dərinləşib və strateji xarakter alıb. Buna görə Ermənistanın KTMT-dən dəstək umması gülünc və absurddur.

Əslində Ermənistanın məqsədi KTMT-ni bu hadisəyə cəlb etmək idi. Lakin Paşinyanın bu siyasi oyunu uğursuzluğa düçar oldu. Hətta Paşinyan Minskə səfər edərək, dövlət başçılarından ayaqüstü dəstək almağa çalışsa da, istədiyinə nail olmadı.

Bu günlərdə Rusiya mətbuatında bu ölkədə yaşayan, milliyyətcə erməni, "Russia Today" telekanalının direktoru Marqarita Simonyanın Ermənistan hakimiyyətini tənqid edən açıqlamasını oxudum. Əslində onun dediklərindən aydın olan odur ki, Ermənistan vassal dövlətdir. Paşinyanın yürütdüyü siyasətin fonunda Ermənistanın Rusiyadan kömək gözləməyə haqqının olmadığını bildirən müəllifin gəldiyi nəticədən aydın olan odur ki, Ermənistan asılı və öz yolu olmayan ölkədir. Ən əsası isə son hərbi məğlubiyyətdən sonra Ermənistanın diplomatik müstəvidəki uğursuzluğu daha da artacaq.



Bununla belə, son günlər Azərbaycana tərəfdaş olan ölkələrin, konkret olaraq Serbiyanın Ermənistana silah-sursat göndərməsinin məlum olması dərin təəssüf hissi doğurur. Bu faktlar Azərbaycan dövlətinin və ictimaiyyətinin haqlı hiddətinə səbəb olub. Çünki Azərbaycan daim Serbiyaya dəstək verib, iqtisadiyyatına sərmayə yatırıb. Azərbaycan 2014-cü ildə daşqınlar zamanı Serbiyaya yardım əlini uzadan ilk dövlət olub, bu yaxınlarda isə koronavirusa görə humanitar yardım göndərib. Ən əsası isə daim Serbiyanın ərazi bütövlüyünü dəstəkləyib. Artıq ölkəmiz diplomatik kanallarla etirazını Serbiyaya çatdırıb və rəsmi Belqradın izahatını gözləyir.

### ABŞ KONQRESİNDƏ İLK DƏFƏ OLARAQ ERMƏNİSTAN ƏLEYHİNƏ DÜZƏLİŞLƏR QƏBUL EDİLİB

Erməni yalanlarının bütün dünyada tədricən ifşa olunması artıq reallıqdır. Xarici ölkələrdəki erməni diaspor təşkilatlarının saxta təbliğatı əvvəlkitək ayaq tutub yerimir. Bugünkü reallıqları, tarixi həqiqətləri düzgün dəyərləndirən ayrı-ayrı ölkələrin siyasi mərkəzləri uzun illərdir dünyanı aldadan ermənilərin əlində artıq alət olmaq istəmirlər. Bir neçə gün öncə ABŞ Konqresində Azərbaycan əleyhinə Daşnaklar tərəfindən təşviq olunan qanunvericilik təkliflərinin qarşısının qətiyyətlə alınması və ilk dəfə olaraq Ermənistan əleyhinə düzəlişlərin qəbul edilməsi bunu təsdiq edir.

Qeyd edim ki, son aylarda ABŞ-ın ermənipərəst qrupları 2021-ci maliyyə ili üzrə “Milli Müdafiə Maliyyələşmə Qanunu” layihəsinə Konqresin bəzi ermənipərəst üzvlərinin dəstəyi ilə düzəlişlərin daxil edilməsi istiqamətində səy göstəriblər. Bu proses çərçivəsində Azərbaycana dəstək verən bir sıra Konqres üzvləri də öz növbəsində Ermənistan əleyhinə iki düzəliş irəli sürüblər. İyulun 17-də keçirilən ABŞ Konqresinin Nümayəndələr Palatasının Qaydalar Haqqında Komitəsinin iclasında Konqres üzvləri Stiv Kohen və Stiv Şabot tərəfindən təklif olunan Ermənistan əleyhinə düzəlişlər Konqresin Nümayəndələr Palatası tərəfindən qəbul olunub.

Bununla yanaşı, erməni lobbisinin səylərinə baxmayaraq, iclas zamanı, Kaliforniya ştatını təmsil edən qatı ermənipərəst konqresmen Bred Şerman və erməni əsilli Ceki Spiir tərəfindən Azərbaycan əleyhinə təklif olunan düzəlişlər qəbul edilməyib. Bu uğursuzluq erməni lobbisinin və xüsusilə də, Daşnak partiyasını təmsil edən Amerikanın Erməni Milli Komitəsinin (ANCA) ciddi çaşqınlığına və məyusluğuna səbəb olub. Ermənipərəst Konqres üzvlərinin Azərbaycan əleyhinə irəli sürdüyü düzəlişlərə dəstək üçün erməni lobbisinin bütün qüvvələrinin, hətta son dəqiqədə milyonlarla izləyicisi olan erməni əsilli “tanınmış simaların” səfərbər olunmasına baxmayaraq, sözügedən düzəlişlərin qəbul edilməməsi erməni tərəfində ciddi narahatlığa səbəb olub. Ermənilərə bu işdə ermənipərəst mövqeyi ilə seçilən Qaydalar Haqqında Komitənin sədrinin dəstək göstərməməsi də ermənilər arasında əlavə gərginliyə və narazılığa səbəb olub.

Azərbaycan tərəfinin bu əhəmiyyətli uğuru ilə barışmaq istəməyən və məğlubiyyətini ört-basdır etməyə çalışan ANCA çoxsaylı erməni diasporunun narazılığının qarşısını almaq və vəsait toplamaq fəaliyyətini davam etdirmək məqsədilə həyasızcasına Azərbaycana heç bir aidiyyəti olmayan, Komitədə qəbul edilmiş ümumi mövzuda bir başqa düzəlişi özünün uğuru kimi təqdim etməyə və ictimaiyyəti yanlış məcraya yönəltməyə cəhd edib. Lakin fakt faktlığında qalır ki, ABŞ Konqresi erməni diasporuna və erməni yalanlarına böyük zərbə vurub.

### İNFORMASİYA TƏHLÜKƏSİZLİYİNƏ ƏMƏL OLUNMASI DÜŞMƏNLƏ MÜBARİZƏDƏ ƏSAS VASİTƏLƏRDƏN BİRİDİR

Məlum olduğu kimi, xüsusən son onilliklərin sıçrayışlı texniki inkişafı informasiya cəmiyyətinin yaranmasına səbəb olub. İnformasiya cəmiyyətinin formalaşması özlüyündə mütərəqqi hadisə olsa da, informasiya təhlükəsizliyinin təmin olunması baxımından ciddi problemlər yaradır. Çünki informasiya təhlükəsizliyi bütün dövrlərdə dövlətlərin milli təhlükəsizliyinin təmin olunmasında mühüm rol oynayıb. Lakin müasir dövrdə informasiya təhlükəsizliyinin təmin olunması xeyli çətinləşib. Ona görə indiki şəraitdə hər bir vətəndaş bu məsələdə dövlətə dəstək verməlidir.

Ermənistanın Tovuz istiqamətində həyata keçirdiyi təxribat zamanı, o cümlədən Bakıda antimilli qüvvələrin iğtişaşı zamanı informasiya təhlükəsizliyi məsələləri yenidən gündəmə gəldi. Təəssüflə qeyd etməliyik ki, həmin günlərdə ermənilərlə yanaşı, sapı özümüzdən olan baltalar sosial şəbəkələr üzərindən həqiqətə uyğun olmayan informasiyalar yaymaqla insanları çaşdırmağa, cəmiyyəti qorxutmağa, təhdid etməyə cəhd göstərdilər. Təqdirəlayiq haldır ki, Azərbaycan cəmiyyəti bu yalanlara inanmadı və ordumuzun şanlı qələbəsi bu kimi əməllərin üstündən xətt çəkdi. O cümlədən ölkə daxilində təxribatçılıq məqsədilə yalan informasiyalar yayanlar müəyyən olunaraq məsuliyyətə cəlb edildilər.

Ermənistanın Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatlarla bağlı xalqımıza müraciət edən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva da diqqəti məhz buna yönəldərək hər kəsi ayıq-sayıq olmağa çağırıb. «Yüksək vətənpərvərlik və mübarizlik əhval-ruhiyyəsi fonunda bu gün bizim hər birimizdən dözümlü, sayıq və təmkinli olmaq tələb olunur. Hər an unutmamalıyıq ki, artıq uzun illərdir yaşadığımız qarşıdurma şəraiti bilavasitə hərbi əməliyyatlar bölgəsini deyil, həm də informasiya məkanını əhatə edir. Sosial şəbəkələr dövründə informasiya müharibələrinin miqyası, onların hadisələrin gedişatına təsiri qarşıdurmanın nəticəsinə təsir edən olduqca mühüm amilə çevrilirlər.

Müasir informasiya platformaları düşmən qüvvələr, bədxah insanlar, bəzən sadəcə paxıl və qərəzli dairələr tərəfindən “feyk”lərin, saxta, təxribat xarakterli materialların yayılması üçün vicdansızcasına istifadə olunur. Məqsəd çaxnaşma, nifaq salmaq və daxili “cəbhə” yaratmaq, düşkünlük və məğlubiyyət əhval-ruhiyyəsini artırmaqdır.

Saxta profillərdən və birdəfəlik işlətmə üçün nəzərdə tutulan telefon nömrələrindən tutmuş istifadəçilərin görmə, eşitmə, emosional qavrayışına psixoloji təsir üsullarından istifadəyədək geniş alətlər arsenalı işə düşür. Bir sözlə, insan qəlbinin ən kövrək tellərinə toxunmaq üçün ən çirkin vasitələrə əl atılır. Ermənistanın işğalçılıq siyasətini dəstəkləyən qüvvələr öz məqsədlərini güdərək, “müharibədə bütün vasitələr yaxşıdır” prinsipi ilə hərəkət edirlər.

Çox sevindirici haldır ki, Azərbaycanın internet istifadəçilərinin əksəriyyəti təxribata uymur, yalan və böhtanı ifşa edir, ağı qaradan seçməyi bacarır və münaqişənin kökləri haqda həqiqətlərdən bəhs edir. Axı, bizim əsas vəzifələrimizdən biri ədaləti tələb edən haqq səsimizi dünya ictimaiyyətinə çatdırmaqdır», - deyə müraciətdə bildirilir.

Xalqımızın sosial şəbəkələrdə nümayiş etdirdiyi milli həmrəyliyi görməmək mümkün deyil. Lakin hər zaman sayıq olmalı, təxribata uymamalıyıq. Sosial şəbəkələrdə foto və video yerləşdirərkən və ya şərh yazarkən unutmalı deyilik ki, bu platformalardan düşmən də istifadə edir və paylaşdığımız hər bir informasiyanı diqqətlə izləyir. Ona görə bu zaman dövlətimizin milli təhlükəsizliyinin təmin olunması kimi əsas ictimai öhdəliyimizi unutmamalıyıq. Eyni zamanda, kompüter arxasında daha fəal olmalı, əsil həqiqətlərin dünyaya çatdırılması, erməni yalanlarının ifşası üçün vətəndaşlıq borcumuzu yerinə yetirməliyik.

Mən bir məsələni də xüsusi qeyd etmək istəyirəm ki, həm bu müraciət, həm də Heydər Əliyev Fondunun nümayəndələrinin Tovuz istiqamətində döyüşlərdə şəhid olan hərbçilərin ailələri ilə görüşmələri Mehriban xanım Əliyevanın bütün bu məsələlərə olduqca həssas münasibətinin, yüksək diqqətinin nümunəsidir. Şəhid olan hərbçilərin ailə üzvlərinin bütün qayğılarının Mehriban Əliyevanın tapşırığına əsasən Heydər Əliyev Fondunün nəzarətinə götürülməsi bütün ölkə ictimaiyyəti tərəfindən alqışla qarşılandı. Budur vətən sevgisi, budur xalqa layiqli xidmət missiyası…

### XARİCİ SİYASƏTİMİZ PREZİDENTİN HÜCUM DİPLOMATİYASINA ADEKVAT OLMALIDIR

Beynəlxalq münasibətlər sistemində hər bir dövlətin nüfuzunu müəyyən edən bir sıra ənənəvi səbəblər var. Bunların arasında ən mühümü təbii ki, dövlətin yeritdiyi siyasətin məzmunu və mahiyyətidir. Çağdaş dövrümüzdə isə dövlətin nüfuzu ilə yanaşı, həm də ona göstərilən beynəlxalq etimadı məhz bu səbəb meydana çıxarır. Bütün dövlətlər dünya birliyinin fəal subyekti olmaq istəyir, milli maraqlarına cavab verən siyasət həyata keçirməyə çalışır. Lakin reallıq ondan ibarətdir ki, hər dövlət bu kimi qlobal nüfuz qazandıran siyasi keyfiyyətlərə nail ola bilmir. Çox uzağa getmədən, elə Ermənistanın timsalında bunu görmək mümkündür. Hələ illər öncə bu ölkə iqtisadiyyatın aparıcı sahələrinə görə kənar dövlətlərdən asılı vəziyyətə salınıb. Bölgədəki təcavüzkar siyasəti səbəbindən həm də xarici siyasətdə kənar diqtələri qəbul etməyə məcbur olub. N.Paşinyanın baş nazirliyi dövründə ölkənin xarici siyasi müdaxilələrdən xilas olması üçün təşəbbüslər göstərilsə də, bu mümkün olmadı. Məhz işğalçı siyasəti, qonşulara qarşı sərsəm ərazi iddalarından əl çəkə bilməməsi səbəbindən yenə də vassal kimi qalmağını qəbul etdi.

Azərbaycan isə tamamilə fərqli siyasi və iqtisadi reallıqlar şəraitində inkişaf edir. Prezident İlham Əliyev müstəqil, milli maraqları əsas tutmaqla, ölkənin beynəlxalq mövqelərinin möhkəmlənməsinə və inkişafına hesablanmış siyasət yürüdür. Elə bir beynəlxalq müzakirə mövzusu yoxdur ki, Azərbaycan həmin vaxt atdığı addımı hansısa dövlətin siyasi və ya iqtisadi maraqlarına uyğunlaşdırsın. Enerji məsələlərindən başlamış, xarici siyasi əməkdaşlığa, beynəlxalq təşkilatlarda iştiraka, qlobal terrorizmlə mübarizəyə qədər Azərbaycan tamamilə müstəqil siyasət həyata keçirir. İlk növbədə, müstəqil siyasət yürütməsi dövlətimizin beynəlxalq münasibətlər sistemindəki nüfuzunu və yerini şərtləndirən əsas amildir.

Eyni zamanda, illər öncədən Prezident İlham Əliyev ölkənin xarici siyasətində yeni məzmun dəyişikliklərinə səbəb olan kardinal dəyişikliklər edib ki, bunlardan biri də hücum diplomatiyasının həyata keçirilməsidir. Hücum diplomatiyası nəticəsində son illərdə erməni təbliğatının və erməni lobbisinin yaratdığı mifin qarşısı alınmaqda, Ermənistanın işğalçı siyasətinin ifşa edilməsi prosesi daha da sürətlənməkdədir. Beləliklə, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması istiqamətində ciddi nəticələr əldə olunub, beynəlxalq ictimai rəy ölkəmizin xeyrinə dəyişib, ayrı-ayrı dövlətlər Xocalı soyqırımını tanımağa və pisləməyə başlayıblar.

Bu baxımdan Azərbaycan Prezidentinin hücum diplomatiyası, Dağlıq Qarabağ probleminin həlli ilə bağlı prinsipial və ardıcıl mövqeyi regionda tamam yeni bir vəziyyətin yaranmasına gətirib çıxarıb.

Lakin təəssüflə qeyd etməliyik ki, ölkənin xarici siyasətinin formalaşmasında iştirak edən şəxslərin fəaliyyəti prezidentin hücum diplomatiyası ilə adekvat təşkil etmirdi. Ona görə cənab İlham Əliyevin Nazirlər Kabinetinin iclasında və yeni Xarici İşlər naziri Ceyhun Bayramovu qəbul edərkən bu barədə sərt danışması tamamilə başadüşüləndir. Ölkə prezidenti xarici siyasətin həyata keçirilməsinə məsul olan şəxslərdən hücum diplomatiyasının mahiyyətinə uyğun olaraq qətiyyət, cəsarət gözləyir.

Yeri gəlmişkən, Ceyhun Bayramov idarəçilikdə yüksək təcrübəsi olan bir məmurdur. İnanırıq ki, onun Xarici İşlər naziri kimi həyata keçirəcəyi fəaliyyət bu sahədə də köklü dəyişikliklərin baş verməsinə gətirib çıxaracaq.

Bu gün zaman Azərbaycanın xeyrinə işləyir. Prezident İlham Əliyevin yürütdüyü uğurlu siyasətin nəticəsidir ki, Ermənistanın işğalçı dövlət kimi tanınması prosesi sürətlənir və bütün dünyada erməni yalanlarına zərbə vurulur. Ən əsası, bu siyasət torpaqlarımızın işğaldan azad olunacağı günü sürətlə bizə yaxınlaşdırır.

**Ziyad SƏMƏDZADƏ,**
**AMEA-nın həqiqi üzvü,**
**Milli Məclisin deputatı**

# İQTİSAD ELMİNİN LAYİQLİ NÜMAYƏNDƏSİ



*Səmədov Aydın Hidayət oğlu*

**1951-ci il iyulun 20-də Bakı şəhərində anadan olub.**
**1968-1972-ci illərdə D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun (indiki Azərbaycan Dövlət İqtisad Universiteti - UNEC) Əmtəəşünaslıq fakültəsində təhsil alıb. 1979-cu ildə Kiyev Ticarət-İqtisad İnstitutunda iqtisad elmləri üzrə namizədlik dissertasiyası müdafiə edib.**
**1972-1989-cu illərdə AXTİ-da müəllim, baş müəllim, dosent vəzifələrində çalışıb.**
**1990-cı ildə Kommersiya fakültəsinin dekanı olub.**
**1992-ci ildə Moskva Kommersiya İnstitutunda doktorluq dissertasiya işini müdafiə edib, iqtisad elmləri doktoru elmi dərəcəsinə layiq görülüb.**
**1986-cı ildə dosent elmi adı, 1996-cı ildə professor elmi adı verilib.**
**1998-ci ildə Rusiya Federasiyası Kommersiya elmləri Akademiyasının müxbir üzvü; 2007-ci ildə həqiqi üzvü seçilib.**
**2000-2017-ci illərdə «Ticarət» və "Ticarət və gömrük işinin təşkili" kafedralarının, daha sonra "İqtisadiyyat" (rus dilində) kafedrasının professoru olub.**
**100-dən çox dərsliyi, elmi məqalələri, fənn proqramları, metodiki dərs vəsaitləri çapdan çıxıb.2020-ci il iyun ayının 27-də vəfat edib.**

* * * *

Azərbaycan iqtisad elminə ağır itki üz verib. İyun ayının 27-də Azərbaycan iqtisad elminin görkəmli nümayəndələrindən biri, iqtisad elmləri doktoru, professor Aydın Səmədov 69 yaşında vəfat etmişdir. Uzun illər çalışdığı Azərbaycan Dövlət iqtisad Universitetində (UNEC) iyulun 21-də videokonfrans formatında alimin anım saatı keçirilmişdir. Videokonfransda tanınmış iqtisadçı alimlər, mərhumun iş yoldaşları və qohumları iştirak edib.

* * * *



**Elşad Məmmədov, iqtsad elmləri doktoru, professor**

Aydın Səmədovun dünyasını dəyişməsi universitetimiz və şəxsən mənim üçün böyük itkidir. Hesab edirəm ki, Aydın müəllimin şəxsiyyətində həm yüksək insani keyfiyyətlər, ilk növbədə daxili mədəniyyət, həm də istedadlı alimə, elm xadiminə xas olan mühüm xüsusiyyətlər cəmləşmişdi. Aydın müəllimlə tanışlığım 30 ilə yaxın dövrü əhatə edir. Mən İqtisad Universitetinə qəbul olanda o, dekan vəzifəsində işləyirdi. Beləliklə, Aydın müəllim mənim dekanım, sonra müəllimim, daha sonra isə buraxılış və namizədlik dissertasiya işlərim üzrə elmi rəhbərim oldu. Tanıdığım 30 ilə yaxın vaxt ərzində Aydın müəllimin heç bir insana nəinki pislik etməsinin, səsinin belə ucaldılmasının şahidi olmadım. Əsl ziyalılıq insanı sadələşdirməli, onu insanlara daha da dəstək verməsinə istiqamətləndirməlidir. Bunun bariz misalı və sübutu kimi Aydın müəllimi, onun insanlara münasibətini göstərmək olar. Aydın müəllim elmi zirvələrə qalxdıqca bir qədər də sadələşir, insanlara dəstək olmağa çalışırdı. Onun necə insan olmasının ən bariz göstəricisi, dünyasını dəyişəndə tələbələrinin, işlədiyi kollektivin üzvlərinin bu itkiyə verdikləri reaksiya idi. Ölkədə tətbiq edilən karantin rejimi şəraitində sosial şəbəkələrdə Aydın müəllimin yüzlərlə tələbəsi, həmkarları göz yaşlarını saxlaya bilmirdilər və bu, onun dünya ilə vidalaşmağının sanki son akkordu idi... Bəyəm, bu müəllimin, alimin ictimai çəkisini və nüfuzunu xarakterizə etmirmi? Hesab edirəm ki, Aydın müəllim kimi ziyalıların, alimlərin getməsi Azərbaycan elmi üçün çox böyük itkidir.

**Allah Aydın müəllimə rəhmət eləsin!**

* * * *

**Akademik Ziyad Səmədzadə**



Respublikamızda iqtisad elmi xüsusilə ötən əsrin 70-ci illərində real həyatla daha sıx əlaqəli şəkildə inkişaf edirdi. Sərt sovet sistemi daxilində Azərbaycan xalqı inkişaf edir, onun sosial-iqtisadi həyatında böyük keyfiyyət dəyişiklikləri baş verirdi. O dövrdə elm, təhsil, mədəniyyət və incəsənətin inkişafı ilə bağlı görülən tədbirlərin miqyası da çox geniş idi. Biz yaddan çıxarmamalıyıq ki, Azərbaycan iqtisadiyyatı SSRİ kimi nəhəng bir dövlətin mərkəzləşdirilmiş planlaşdırma, inzibati-amirlik sisteminin tərkib hissəsi idi və bu sistemin məlum nöqsanları sosial-iqtisadi inkişafa da təsir edirdi. Keçmiş Sovetlər sistemində İttifaq mənafeləri üstünlük təşkil edirdi, yəni hər sey ilk növbədə vahid xalq təsərrüfatı kompleksi baxımından qiymətləndirilirdi. Bütün bunlara baxmayaraq, sovet rejimi şəraitində Azərbaycan xalqı əsrlərə bərabər böyük inkişaf yolu keçmişdir. Bu nailiyyətlərin əldə olunmasında elm faktorunun, o cümldən iqtisad elminin də müəyyən payı vardır. Azərbaycanda iqtisad elminin sütunlarından biri də Aydın Səmədov olmuşdur. Hazırda müasir iqtisad elmi bu sütunların üzərində dayanır. Aydın Səmədov bütün ömrünü bu sahəyə həsr edən insanlardan idi.

Aydın Səmədov elmi fəaliyyətini daim tədris fəaliyyəti ilə bərabər yerinə yetirmiş, müxtəlif illərdə institutda dekan, prorektor vəzifələrində çalışmış və tədris təşkilatçısı kimi də tanınmışdı.

A.H.Səmədovun həm Azərbaycan, həm də Rusiya kommersiya elmləri sahəsindəki xidməti, bu sahələrdəki elmi yenilikləri və elmi-tədqiqat nəticələri Rusiya Kommersiya Elmləri Akademiyası tərəfindən yüksək qiymətləndirilmiş və Azərbaycan Respublikasından ilk dəfə o, 1998-ci ildə Rusiya Kommersiya Elmləri Akademiyasının müxbir üzvü, 1999-cu ildə həqiqi üzvü seçilmişdi.

Yadımdadır, mən o vaxt Azərbaycan Dövlət İqtisad Universitetində elmi işlər üzrə prorektor işləyirdim. Aydınla tez-tez görüşüb, söhbət edərdik. O dövrdə xarici ölkələrə getmək çətin idi. Yaxşı xatırlayıram, Aydın da Çexoslovakiyaya getməyə can atırdı. Onun həmin ölkəyə elmi ezamiyyyətə getməsinə dəstək oldum. Orada o, elmi-tədqiqat və tədris işləri ilə məşğul olurdu, müxtəlif səviyyəli elmi forumlarda iştirak edirdi. Bir çox elmi məqalələrini də məhz Praqada çap etdirmişdi.

1980-ci illərin əvvələri idi. Ümummilli lider Heydər Əliyevin tapşırığı ilə Bakı şəhərinin kompleks inkişaf proqramını hazırlamaq mənə həvalə edilmişdi. Bakı şəhər partiya komitəsi və Təhsil Nazirliyinin bərgə qərarı əsasında mənim rəhbərliyimlə institutun nəzdində Bakı şəhərinin sosial-iqtisadi inkişaf problemləri laboratoriyası yaradıldı. Mən bu işə tanınmış iqtisadçıları, o cümlədən Aydın Səmədovu cəlb etdim və o, Bakıda xidmət sahələrinin kompleks inkişaf məsələlərini araşdırmağa başladı. O vaxtlar mən bir daha Aydının zəhmətsevərliliyinin şahidi oldum.

Azərbaycanın çox görkəmli iqtisadçı alimləri var. Gənc nəsil onları tanımalıdır. Çox təəssüf ki, bu məsələ hələ də diqqət mərkəzində deyil. Gənc tədqiqatçılar elmi araşdırmalar apararkən əvvəlki nəslin iqtisadçı alimlərinin tədqiqatlarına diqqət verməlidir. Çünki onların kifayət qədər sanballı elmi tədqiqatları var. Müasir iqtisad elminin köklü, güclü əsasları var. Onlara kölgə salmağa heç kimin mənəvi haqqı yoxdur.

***Aydın Səmədov bu gün aramızda yoxdur. Amma hər birimizin qəlbində özünəməxsus yeri var. Allah rəhmət eləsin, qəbri nurla dolsun!***

**Sonda bu videokonfransın təşkili üçün Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradova və professor Elşad Məmmədova öz təşəkkürümü bildirirəm.**

* * * *



**Arif Şəkərəliyev, AzDİU-nun "Ticarət və gömrük işinin təşkili" kafedrasının müdiri, Əməkdar elm xadimi, i.e.d., professor**

İqtisad elmləri doktoru, professor Aydın Səmədov Azərbaycan Dövlət İqtisad Universitetinin kollektivi arasında böyük nüfuza, hörmətə malik olan alim və pedaqoq idi. Onun xatirəsi daima əzizdir.

Mən Aydın müəllimi 40 ildən artıq bir müddətdə tanımışam və onunla bir kafedrada çalışmışam. Aydın müəllim gözəl pedaqoq olmaqla yanaşı, həm də bacarıqlı təhsil təşkilatçısı idi. Uzun müddət dekan vəzifəsində hörmətlə işləmiş və tələbələrin sevimlisi olmuşdur. O, daima tələbələrə diqqətlə yanaşırdı, onların məişət məsələləri ilə maraqlanırdı. Onun elmi fəaliyyəti daha geniş idi. Keçmiş İttifaqın tanınan alimlərindən idi.

Aydın Səmədov iqtisad elmi sahəsində dərin bilik və zəkaya, əsl ziyalılıq, alimlik və vətəndaşlıq mövqeyinə malik olan, sadə, xeyirxah və müdrik insan idi. Aydın müəllim böyük alim, söz sahibi və şəxsiyyət idi. O, elmə həvəsi olan, bu sahədə qabiliyyətli bütün gənclərə elmin keşməkeşli yollarında yüksəlməkdə hər cür mənəvi və lazım gəldikdə maddi yardım göstərirdi. Bu görkəmli alimin bilavasitə rəhbərliyi ilə 30-dan artıq elmlər namizədi yetişmiş, onlara elmi məsləhətlər vermiş, çətin günlərində dayaq olmuşdur.

**Aydın Səmədovun əsərləri ölkə xaricində də həvəslə oxunur. Onun tədqiqatları MDB məkanında öyrənilir və tədqiq edilir. Xüsusi olaraq Beynəlxalq ticarət və onun təşkili, kommersiya sahəsində tədqiqatları diqqəti cəlb edir.**

Professor Aydın Səmədov elmi ictimaiyyət, xüsusən iqtisadçı alimlər arasında böyük nüfuz sahibi idi. O, üzvü olduğu dissertasiya müdafiələrinin iclaslarında özünün prinsipial mövqeyi və xeyirxahlığı ilə də seçilirdi. Bu nüfuzu ona alim istedadı, elm yolu ilə gedənlərə təmənnasız köməyi, mübahisəli məsələlərdə prinsipial mövqe tutması qazandırmışdır. Alim özündən sonra zəngin elmi irs miras qoymuşdur. O, vaxtsız dünyasını dəyişmişdir.

**Allh rəhmət eləsin, ruhu şad olsun.**

* * * *

**M.Səmədova, UNEC-in "İqtisadiyyat" kafedrasının dosenti, S.X.Muradova, müəllim**

Görkəmli iqtisadçı alim və pedaqoq olan Aydın Hidayət oğlu Səmədov barəsində keçmiş zamanda danışmaq olduqca çətindir. O, həmkarlarının, tələbələrinin, bütün yaxınlarının ürəyində nəcibliyi, kamilliyi, böyüklüyü ilə əbədi yer tutmuşdur. Müdrik və xeyirxah insanlar mənən həmişə qəlblərdə yaşayır, onların həyatda yoxluqları isə son dərəcə ağrı və təəssüf hissi doğurur. Aydın müəllim o qədər alicənab, təvazökar, səmimi insan idi ki, özünü həyatda həddən artıq sadə aparırdı. Aydın müəllim, sözün əsl mənasında, ziyalı idi. 150-dən artıq elmi əsərin, o cümlədən 10-larla monoqrafiya və kitabın müəllifi olmuş, çoxsaylı elmlər namizədi və elmlər doktorunun yetişməsində əvəzsiz xidmətlər göstərmişdir.





Bir pedaqoq kimi Aydın müəllim tələbə və magistrlər arasında öz qayğıkeşliyi, peşəkarlığı, xeyirxahlığı ilə dərin hörmət qazanmışdır. Ömrünün böyük hissəsini Azərbaycan Dövlət İqtisad Universitetinin "Ticarət" kafedrasındakı fəaliyyətə həsr etmiş professor Aydın Səmədovun bu sahənin inkişafında misilsiz xidmətləri, kafedranın aspirant və doktorantları üzərində böyük əməyi olmuşdur. Onun rəhbərliyi altında kafedramızın bütün aspirant və dissertantları müdafiə edərək, elmi dərəcə almışlar. Professor A.Səmədov Azərbaycanın hüdudlarından kənarda da tanınırdı və xarici həmkarlarının da xüsusi sevgi və rəğbətini qazanmışdır.

**Aydın müəllimin əziz xatirəsi onu tanıyanların qəlbində daim yaşayacaq.**

* * * *



**Sevinc Abbasova, "İqtisadiyyat" kafedrasının müdiri, dosent**

Deyirlər, hər insanın bu həyatda öz missiyası var. Tale belə gətirib ki, öz yorulmaz zəhməti ilə milli təhsilə və elmə böyük töhfə qazandıran, hamının sevimlisi - görkəmli alim, mükəmməl pedaqoq, professor Aydın Səmədov kimi dəyərli şəxsiyyətlə mən neçə illər bir yerdə çalışmışam.

Hər zaman iş prosesində, istər universitetimizin Metodiki Şurasında, yaxud Dissertasiya Şurasında işləyərkən, istərsə də kafedramızda, müxtəlif məsələlərin müzakirəsində Aydın müəllimin ətrafdakı insanlara yalnız xoş anlar, gözəl əhval-ruhiyyə, sevincli məqamlar bəxş etmək, öz səmərəli və əzmkar fəaliyyəti ilə gənc nəsilə gözəl örnək, möhtəşəm nümunə olmaq, onlara yaxşını pisdən seçməyi öyrətmək kimi missiyanı həyata keçirmək üçün dünyaya gəldiyini fikirləşirəm. Təvəzökar, müdrik, xeyirxah, əsl ziyalı, bizim üçün çox qiymətli olan, professor Aydın Səmədovun yeri kafedramızda hər zaman görünəcək.

* * * *



**Natiq Hüseyn oğlu Qurbanov (RİM), i.e.n., dosent**

Rəhmətlik Aydın müəllimlə tanış olub, özümə sonrakı ömrüm boyu fəxr etdiyim dost və qardaş qazandığıma görə öz talehimə və alimlər arasında işgüzar və dostluq münasibətləri yaradan ağsaqqalımız, akademik Ziyad Səmədzadəyə minnəttaram. Professor Aydın Səmədov öz adına layiq əsl aydın,səmimi insan və alim idi.Onu professor adı yox, o, özü professor adını yüksəklərə qaldırırdı. O, həmişə mənim qəlbimdə yaşayacaq.

**Allah rəhmət eləsin!**

* * * *

**Zöhrə Mustafayeva, i.e.n., dosent; Sevər Məmmədova, dosent:** Çox





təəssüf edirik ki, bugünkü toplanmağımızın səbəbi olduqca kədərlidir, lakin Aydın müəllim o qədər dəyərli, çox nadir, yüksək səviyyəli, intellektual, əsl ziyalı, sadə, tərbiyəli və sevimli insan idi ki, onun xatirəsini yad etmədən, ürək sözlərimizi demədən düz olmaz. Azərbaycan Dövlət İqtisad Universitetinə, Rus iqtisad məktəbinə çox ağır itki üz vermişdir. Biz i.e.d., prof., Rusiya Akademiyasının müxbir üzvü **AYDIN HİDAYƏT oğlu SƏMƏDOVU itirdik. Çox heyif, çox.**

Mən Aydın müəllimi 30 ildir tanıyıram və onun 23 ilini biz Müdafiə Şuralarında birgə çalışmışıq. Aydın müəllim öz səliqəsi, konkret və lakonik çıxışları, dəyərli təklifləri ilə seçilən adam idi. O, hər zaman mənalı və sanballı təkliflərlə çıxışlarını tamamlayırdı. Mən hamıya, onun ailə üzvlərinə başınız sağ olsun deyirəm.

**Allah rəhmət eləsin!**

* * * *



**Mansur Barxudarov, Rus dilində Tədris Mərkəzinin direktoru, i.e.n., dosent**

Əziz dostlar, iqtisad elminə ağır itki baş vermişdir. Şəxsiyyətinin çiçəkləndiyi və ziyasının ətrafını işıqlandırdığı bir çağda Azərbaycan xalqının dəyərli oğlu, i.e.d., professor Aydın Səmədov haqqın dərgahına qovuşdu.

İ.e.d., professor Aydın Səmədov özünü bütövlükdə iqtisad elminə həsr etmiş, böyük Azərbaycan alimidir. O, bir iqtisadçı alim olaraq, nəinki ölkəmizdə, habelə postsovet məkanında böyük nüfuz qazanmışdır. Rusiya Kommersiya Elmləri Akademiyasının həqiqi üzvü seçilmiş i.e.d., professor Aydın Səmədov ticarət iqtisadiyyatı elmi istiqaməti sahəsində söz sahibi olan Azərbaycan alimi idi. Onlarla kitab və yüzlərlə elmi məqalənin müəllifi olan Aydın müəllim, həm də onlarla iqtisadçı alim yetişdirmişdi. Aydın müəllimin öz səmimiyyəti ilə kollektivdə böyük hörmət qazanmışdı və kollektivin hər bir üzvü üçün doğma olan bir adama çevrilmişdi.

Mən 1994-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetində pedaqoji fəaliyyətə başlayarkən prof. Aydın Səmədov mənim ilk dekanım olub. Tədrisin təşkili və idarə edilməsində Aydın müəllim öz xüsusi dəst-xətti ilə seçilirdi. Bir məsələni də həmişə müəllimlərin və tələbələrin qarşısında tez-tez vurğulayırdı: "Vaxt vardı, mən Mənsur müəllimin dekanı idim. İndi isə o, mənim dekanımdır". O, bu sözləri çox böyük sevinc hissi ilə deyirdi. Bu xüsusiyyəti isə onun ürəyinin böyüklüyünün və özünün sadəliyinin göstəricisi idi.

Biz, UNEC ailəsi və Rus iqtisad məktəbinin kollektivi olaraq, böyük bir iqtisadçı alimimizi və dəyərli dostumuzu itirdik. Onun yeri daim hiss olunacaqdır və xatirəsi əbədi olaraq qəlblərimizdə yaşayacaqdır!

**Allah rəhmət eləsin!**
**Məkanı cənnət olsun!**

* * * *

**Professor Elşən Hacızadə**

Biz Aydın Səmədovla uzun müddət bir universitetdə çalışmışıq. O, mütərəqqi baxışlı, müasir bilikləri özündə ehtiva edən qabaqcıl elm adamı idi. Aydın müəllimlə ünsiyyətdə olmaq, onu dinləmək, fikir mübadiləsi aparmaq hər zaman xoş təəssürat yaratmışdır.

Onunla təmaslarımız universitetin nəzdində fəaliyyət göstərən Dissertasiya Şuralarında daha sıx olmuşdur. Aydın müəllim elmi kadrların hazırlanmasına böyük diqqət və həssaslıqla yanaşırdı. O, müzakirə və diskussiyalarda həmişə yüksək təfəkkür nümayiş etdirir, idrakı və prinsipiallığı ilə fərqlənirdi. Əsl ziyali, peşəkar müəllim olaraq, dərin intellektli elm xadimi idi.



Nurlu təbəssümlü siması, xoş xasiyyəti, xeyirxahlığı və təvazökarlığı ilə fərqlənən Aydın müəllim iqtisad elminə böyük töhfələr vermişdir. Onu elmi ictimaiyyət görkəmli alim olaraq, bazar şəraitində ticarətin idarəedilməsi sahəsində respublikada elmi məktəblərin yaradıcılarından biri kimi tanımış və qəbul etmişdir.

Unudulmaz və görkəmli alimə Allahdan rəhmət diləyir, ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı veririk.

* * * *



**Rəsul Balayev, UNEC "Rəqəmsal iqtisadiyyat və İKT" kafedrasının professoru**

Professor Aydın Səmədov barədə keçmiş zamanda danışmağa çətinlik çəkirəm. O, ən yüksək insani keyfiyyətləri ilə yadımdadır. Postsovet məkanında Azərbaycan elmini layiqli şəkildə təmsil edirdi. Kitabları böyük auditoriyada oxunur. Bu əsərlərin tədqiqatçılar və iqtisadçılar üçün uzun zaman çox gərəkli və faydalı olacağına şübhə etmirəm. Aydın Səmədovun xarici akademiyalarda üzvlüyü və davamlı fəaliyyəti çox məhsuldar olub. Azərbaycan Dövlət İqtisad Universitetində (UNEC) fəaliyyəti professor-müəllim və tələbələrin gözəl xatirəsinə çevrilir.

Əminəm ki, Aydın Səmədovu tanıyan hər kəs üçün onun işıqlı xatirəsi əzizdir. Elmdə və pedaqoji fəaliyyətdəki uğurları, əsərləri və nurlu siması yadımızdan çıxmayacaqdır. **Ruhu şad olsun.**

* * * *

**Səmədov Hidayət Aydın oğlu**



Hörmətli videokonfrans iştirakçıları, dəyərli qonaqlar!

Dünyada və həmçinin dövlətimizdə baş verən "Covid 19" pandemiyası ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişi ilə Nazirlər Kabinetinin yanında yaradılmış operativ qərərgahın qərarına əsasən, yas mərasimlərinin təşkili müvəqqəti olaraq dayandırılmışdır.

"Covid 19" pandemiyası ilə mübarizəyə dəstək olaraq atamın yas mərasimi təşkil edilməmişdir. Söz veririk ki, bu yaxın zamanlarda mövcud olan qaydada qanunvericiliyə uyğun olaraq atamın - Səmədov Aydın Hidayət oğlunun yas mərasimi olacaqdır. Mənim bu çətin dövrümdə sizin onlayn qaydada vida mərasimini təşkil etməniz atamın sizlərə əziz olmasının, sizin gözünüzün önündə böyük hörmətə malik olmasının bariz göstəricisidir. Videokonfrans zamanı bir daha sübut olunmuşdur ki, cəmiyyətdə Aydın müəllimin qazandığı hörmət və uğurlarla ömrümün axırına qədər fəxr edəcəyəm. Ayrı-ayrılıqda hər birinizə, bütün videokonfrans iştirakçılarına, başda Ziyad müəllim olmaqla öz təşəkkürümü bildirirəm. Vaxtınızı ayırıb bu vida mərasiminə qoşulub atamı yad etdiyinizə görə sizlərə Allahdan can sağlığı diləyirəm.

**Hər birinizə özümün və ailəmin adından dərin minnətdarlığımı bildirirəm.**

# Qara metallar və onlardan hazırlanan məmulatların idxalı artıb



Yanvar-iyun aylarında ölkəyə 439,1 min ton qara metallar və onlardan hazırlanan məmulatlar idxal edilib.

Dövlət Gömrük Komitəsinə (DGK) istinadla xəbər verir ki, hesabat dövründə idxal edilən qara metallar və onlardan hazırlanan məmulatların dəyəri 505,4 milyon ABŞ dollarından çox olub.

Xatırladaq ki, 2019-cu ilin eyni dövründə 459,8 milyon dollarlıq 398,5 min ton qara metallar və onlardan hazırlanan məmulatlar idxal edilib.

# Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı ölkələrindən ən çox Türkiyəyə məhsul ixrac edib

Cari ilin yanvar-iyun aylarında Azərbaycanın ən çox məhsul ixrac etdiyi İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələri sırasında ilk üçlükdə Türkiyə, Tunis və Malayziya qərarlaşıb. Türkiyəyə ixracın dəyəri 1 milyard 476,9 milyon dollar, Tunisə 142,6 milyon dollar, Malayziyaya isə 60,4 milyon dollar olub.

Dövlət Gömrük Komitəsinə istinadla xəbər verir ki, ötən ilin müvafiq dövrünə nisbətən hər üç ölkəyə ixracın dəyərində artım müşahidə edilib.



# Azərbaycandan Avropa İttifaqı ölkələrinə 131,2 milyon dollarlıq məhsul göndərilib



İyunda Azərbaycandan Avropa İttifaqına (Aİ) üzv ölkələrə 131,2 milyon ABŞ dolları dəyərində məhsul ixrac olunub.

Dövlət Gömrük Komitəsindən AZƏRTAC-a bildirilib ki, ötən ay Aİ ölkələrindən Azərbaycana idxal olunan məhsulun dəyəri isə 173,9 milyon dollar təşkil edib.









# Avropa İnvestisiya Bankı TANAP layihəsinə kredit ayırıb



270 milyon dollarlıq kredit Türkiyənin "Botaş" şirkətinə ayrılıb. Kredit ümumilikdə 18 illik müddətə, 5 illik isə əsas vəsaitin geri qaytarılmaması şərti ilə verilib.

Qeyd edək ki, 2018-ci il iyunun 30-dan indiyədək TANAP-la Türkiyəyə 6,2 milyard kubmetr təbii qaz nəql edilib. Bu ilin yanvar-iyun aylarında TANAP-la Türkiyəyə 1,9 milyard kubmetr qaz nəql olunub.

Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz-2" yatağından çıxarılan ilk kommersiya təbii qazının TANAP boru kəməri ilə Türkiyəyə nəqlindən 2 il ötüb. TANAP-la Türkiyəyə kommersiya qazının nəqlinə başlanmasının birinci ili 2 milyard kubmetr qaz tədarük edilib. Ticari əməliyyatların ikinci ili cari il iyunun 30-da bitib və həmin tarixə TANAP-la nəql edilən Azərbaycan qazının həcmi 6 milyard kubmetr olub. Sonrakı dövrdə isə boru kəməri ilə ildə 6 milyard kubmetr qaz nəql ediləcək. Kəmərin mövcud ötürücülük qabiliyyəti hazırda 16 milyard kubmetrdir, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılması nəzərdə tutulur. İlkin mərhələdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq. Azərbaycan təbii qazını Avropaya nəql edəcək və TANAP-a birləşdirilən TAP kəmərinə sınaq məqsədilə 21,4 milyon kubmetr qaz vurulub.

"Şahdəniz-2" qazını Türkiyəyə nəql edən TANAP boru kəməri Türkiyə-Gürcüstan sərhədində Cənubi Qafqaz Boru Kəmərinə qoşulub, Türkiyə-Yunanıstan sərhədində isə TAP qaz boru kəmərinə birləşib. Avropa İttifaqı üçün prioritet enerji layihələrindən biri olan və 3500 kilometrlik Cənub Qaz Dəhlizinin birləşdirici halqasını təşkil edən TANAP-ın Gürcüstan-Türkiyə sərhədi-Əskişəhər 56 düymlük hissəsinin uzunluğu 1350 kilometr, Əskişəhər-Türkiyə-Yunanıstan sərhədi boyunca 48 düymlük hissəsinin uzunluğu isə 480 kilometrdir. Mərmərə dənizi boyunca isə boru kəmərinin diametri 36 düym təşkil edir. İki fazada icra olunan layihə çərçivəsində boru kəmərinin uzunluğu (19 kilometri Mərmərə dənizindən keçməklə) ümumilikdə 1850 kilometrdir.

# Azərbaycanda sığorta haqlarının 78%-i 5 şirkətin payına düşür




2020-ci ilin yanvar-iyun aylarında Azərbaycanda həyata keçirilmiş 400 milyon 959 min manat sığorta yığımının 312 milyon 825 manatı və yaxud 78%-i 5 sığorta şirkətinin payına düşüb.

Bu şirkətlər "PAŞA Həyat Sığorta", "PAŞA Sığorta", "Azərsığorta", "Atəşgah Həyat Sığorta" və "Qala Sığorta"dır.

Bu ilin yanvar-iyun aylarında "PAŞA Həyat Sığorta" 132 milyon 820 min manat, "PAŞA Sığorta" 100 milyon 212 min manat, "Azərsığorta"39 milyon 462 min manat, "Atəşgah Həyat Sığorta" 21 milyon 249 min manat və "Qala Sığorta" 19 milyon 82 min manat sığorta yığımı edib.

6 ay ərzində ən az sığorta haqqı toplamış sığorta şirkətləri isə "AXA MBask" (5 min manat), "Naxçıvan Sığorta" (624 min manat) və "Bakı Sığorta" (729 min manat) ASC-lərdir. Adları çəkilən şirkətlər ümumilikdə 1,358 milyon manat sığorta haqqı toplayıb ki, bu da ümumi yığımların 0,3%-i deməkdir.

Qalan 13 sığorta şirkətinin ümumi yığımları isə 86 milyon 776 milyon manat və ya 21,6% təşkil edib.

# Naxçıvan MR-nin iqtisadiyyatı böyüyüb, sənaye istehsalı artıb



Bu ilin yanvar-iyun aylarında Naxçıvan Muxtar Respublikasında 1 milyard 310 milyon manat dəyərində ümumi daxili məhsul (ÜDM) istehsal olunub.

Dövlət Statistika Komitəsinin göstəri, bu, ötən ilin eyni dövrünə nisbətən 1,1% çoxdur.

Son 1 ildə muxtar respublikada adambaşına düşən ÜDM-in dəyəri isə 1,7% artaraq 2 848 manat olub.

6 aylıq ÜDM-in tərkibində ilk yeri 30,1%-lik payla sənaye sahəsi tutub və maddi istehsalın 58%-ni təşkil edib.

Son 1 ildə bölgədə sənaye istehsalı 1% artıb. Hesabat dövründə kənd təsərrüfatında 3,4%, informasiya və rabitə xidmətlərində isə 3,1% artım olub.

Muxtar respublikada 561,5 milyon manat dəyərində sənaye məhsulu istehsal olunub.

Bu, ötən ilin eyni dövrünə nisbətən 1% çoxdur.

Sənaye məhsulu istehsalının 96,3%-i malların, 3,7%-i isə xidmətlərin payına düşüb. İstehsal olunan sənaye məhsulunda özəl bölmənin payı 94,2% təşkil edib ki, bu da ölkənin digər iqtisadi rayonları ilə müqayisədə ən yüksək göstəricidir.

# Qiymətli metal filizləri və konsentratlarının istehsalı artıb



İyunda mədənçıxarma sənayesinin əsas məhsul növlərindən sayılan qiymətli metal filizləri və konsentratlarının istehsalı 657,1 kiloqram olub.

Dövlət Statistika Komitəsinin məlumatında bildirilir ki, bu göstərici əvvəlki ayla müqayisədə 63,4 kiloqram artıb.

İyulun 1-nə olan vəziyyətə əsasən, 676,1 kiloqram hazır məhsul ehtiyatı var.

# Ötən ay gümüş istehsalı artıb



İyunda mədənçıxarma sənayesində istehsal olunmuş əsas məhsul növlərindən sayılan qiymətli metal filizlərinin 378,1 kiloqramı gümüşün payına düşüb. Dövlət Statistika Komitəsindən bildirilib ki, bu göstərici əvvəlki ayla müqayisədə 29,7 kiloqram çox olub.

İyulun 1-nə olan vəziyyətə hazır gümüş ehtiyatı 416,6 kiloqram təşkil edib.

# Plastmas və onlardan hazırlanan məmulatların idxalı azalıb



Bu ilin 6 ayında ölkəyə 98,3 min ton plastmas və onlardan hazırlanan məmulatlar idxal edilib.

İdxal edilən plastmas və onlardan hazırlanan məmulatların dəyəri 169,4 milyon dollar olub.

Xatırladaq ki, keçən ilin eyni dövründə dəyəri 181,5 milyon dollar olmaqla 100,9 min ton plastmas və onlardan hazırlanan məmulatlar idxal edilib.

# Son bir ayda şirkətlər 9 mindən çox bank hesabı açıblar



2020-ci ilin iyun ayı ərzində müştəri hesablarının sayı 19 milyon 887 min 235-ə çatıb.

Mərkəzi Bank xəbər verir ki, son bir ayda müştəri hesablarının sayı 425 min 227 ədəd və ya 2,2% artıb.

O cümlədən, cari hesabların sayı 389 min 265 və ya 2,3% artaraq 17 milyon 18 min 177-ə, kredit hesablarının sayı 31 min 44 və ya 1,2% artaraq 2 milyon 582 min 377-ə, depozit hesablarının sayı isə 4 min 918 və ya 1,7% artaraq 286 min 681-ə yüksəlib.

Ötən ilin iyun ayı ilə müqayisədə isə cari hesabların sayı 2 milyon 41 min 679 və ya 11,4%, həmçinin fiziki şəxslərin cari hesablarının sayı 2 milyon 129 min 474 və ya 14,5%, hüquqi şəxslərin cari hesablarının sayı isə 3 min 534 və ya 1,4% artıb.

Bu ilin iyun ayında fiziki şəxslərin cari hesablarının sayı 16 milyon 768 min 435, hüquqi şəxslərin cari hesablarının sayı 249 min 742 olub. Aylıq müqayisədə isə hüquqi şəxslərin cari hesablarının sayı 9 min 289 artıb.

# "Fitch": Neftin qiyməti artacaq




"Brent" markalı neftin qiyməti gələn ilədək 45 ABŞ dolları ətrafında, 2022-ci ildə 53 dollar, sonrakı dövrdə isə 55 dollar səviyyəsində olacaq. "Fitch Ratings" agentliyinin bazarın gələcək inkişafına dair araşdırmasına görə "WTI" markalı neft "Brent"ə nisbətən 3 dollaradək ucuz satılacaq. Neftin bahalaşmasının isə daha çox OPEC+ çərçivəsində hasilatın ixtisarı nəticəsində baş verəcəyi qeyd olunur. "Bizim gümanımıza görə OPEC+ hasilatın böyük qalığına, yaxud kəsirinə yol verməmək üçün 2020-ci ilin aprel ayında əldə edilmiş və iki ilə nəzərdə tutulan razılaşmanı vaxtaşırı dəyişdirəcək. Bu da neft qiymətlərinin tədricən əvvəlki səviyyəyə qayıdacağına dair gözləntilərimizə uyğundur", – sənəddə deyilir.




# Hindistan da koronavirusa qarşı peyvənd istehsalına başladı

Hindistanın Serum İnstitutu (SII) avqust ayında eksperimental “Covishield” koronavirus peyvəndinin ilk hissəsinin istehsalına başlayacaq.
İnstitutun direktoru Adar Punavalla bu barədə “İndia TV”yə danışıb.
Dərman Oksford Universiteti və Avstriyanın “AstraZeneca” şirkəti tərəfindən hazırlanıb. Əvvəlcə ayda 60-70 milyon, tədricən 100 milyon doza istehsal edilməsi planlaşdırılan peyvəndin hasilatı tədricən 100 milyona çatdırılacaq.
SII ilin sonuna qədər 300-400 milyon doza “Covishield” buraxmaq niyyətindədir.



İnstitut direktorunun sözlərinə görə, hind istehsalçıları peyvəndi ən ucuz qiymətə və Hindistanla yanaşı, yoxsul ölkələrdəki insanlara da əlçatan etməyə çalışacaqlar.
Koronavirus infeksiyasına qarşı peyvənd paralel olaraq dünyanın bir sıra ölkələrində, o cümlədən ABŞ, Çin, İtaliya, Almaniya, Yaponiya, Rusiya və digərlərində hazırlanır.

# 2020-ci ilin ən bahalı markalarının adları açıqlandı

“Forbes” jurnalı dünyanın 100 ən bahalı markasının siyahısını dərc edib. Bildirildiyi kimi, onların ümumi dəyəri 2019-cu ildən bəri 2,33 trilyon dollardan 2,54 trilyon dollara qədər artmışdır.
Ənənəvi olaraq, reytinqdə İT şirkətləri liderlik edir. Qeyd edək ki, ilk beşlik 2019-cu ildən bəri dəyişməyib.
2020-ci ilin 10 ən bahalı brendi:
“Apple” – 241,2 milyard dollar (+17%).
“Google” – 207,5 milyard dollar (+24%).
“Microsoft” – 162,9 milyard dollar (+30%).
“Amazon” – 135,4 milyard dollar (+40%).
“Facebook” – 70,3 milyard dollar(-21%).
“Coca-Cola” – 64,4 milyard dollar (+9%).
“Disney” – 61,3 milyard dollar (+18%).
“Samsung” – 50,4 milyard dollar (-5%).
“Louis Vuitton” – 47,2 milyard dollar (+20%).
“McDonald’s” – 46,1 milyard dollar (+5%).
Siyahıdakı şirkətlərin yarıdan çoxu ABŞ-da yerləşir, onu – Almaniyada, doqquzu – Fransada, altısı – Yaponiyada, beşi – İsveçrədə.
İT şirkətlərindən sonra siyahıda ikinci yerdə maliyyə xidmətləri dayanır – 14 müəssisə, 11 avtomobil şirkəti, 8 pərakəndə satış.
“Visa” (25-ci yerdən 18-ci yerə), “Adidas” (61-ci yerdən 51-ci yerə) və “Netflix” (38-ci yerdən 26-cı yerə) şirkətinin mövqeyi nəzərəçarpacaq qədər dəyişib.
2020-ci ildə dünyanın ən bahalı markaları siyahısına “Nintendo”, “Hennessy”, “Burger King” və “AXA” şirkəti daxil olub. “Phillips”, “Hewlett Packard Enterprise” və “Kellogg’s” bu siyahını tərk edib.

# Dünyanın ən sürətli adaptoru hazırlanıb

“Qualcomm” smartfonlar üçün “Quick Charge 5” sürətli şarj cihazı hazırlayıb.
Bu barədə “ArsTechnica” məlumat yayıb.
Yeni cihaz sayəsində bir smartfon batareyası beş dəqiqə ərzində sıfırdan 50 faizədək yüklənə biləcək.
Şirkətin mühəndisləri yeni standartı 4500 milliamper/saat-lıq iki elementli batareyaya sahib cihazlarda da sınaqdan keçiriblər.
“Qualcomm” mütəxəssislərinin sözlərinə görə, 100 vatt doldurulduqda, yük hər iki




batareya elementləri arasında bərabər (hər biri təxminən 50 vatt) paylanır.
“Qualcomm” yeni standartın “USB Power Delivery” protokolunu dəstəklədiyini vurğulayıb, yəni bundan yalnız smartfonların deyil, həm də kompüterlərin şarjı üçün istifadə edilə bilər.
Bundan əvvəl bildirilmişdi ki, hakerlər telefon şarj cihazlarını uzaqdan yandırmağı öyrəniblər. Onlar devaysın müdafiə proqramından yan keçərək, sürətli şarjı dəstəkləyən istənilən smartfona uzaqdan qoşula bilirlər və şarjda olan cihaza daxil olaraq, batareyaya həddən artıq güc tədarükünə səbəb olurlar. Nəticədə, smartfon isinməyə başlayır və yanır.

# Turistlər üçün ən ideal ölkə məlum oldu



Turistlər üçün ən ideal ölkə İspaniya müəyyən edilib.
Bu barədə “The İndependent” xəbər yayıb.
Nəşrin apardığı araşdırmada 6 000-dən çox insan iştirak edib. Respondentlərin bu ölkəni seçməsinin səbəbi yaxşı çimərliklərin, böyük şəhərlərin, zəngin mədəni irsin və əla mətbəxin birləşməsi olub.
İkinci yerdə yalnız 55 səs az toplamış, uğurlu ərazisi, müxtəlif mədəniyyətə malik insanları, tarixi və ləziz yeməkləri olan İtaliya dayanır.
Almaniya və Türkiyə siyahıda növbəti yerləri paylaşıb.




Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Akif Musayev, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Müşfiq Atakişiyev, Amil Məhərrəmov, Rüfət Quliyev, Mirqasım Vahabov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Cahangir Qocayev, Abbas Əliyev

Dizayner:
Lamiyə NƏBİYEVA

Redaksiyanın ünvanı:
Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq:
+99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, «Azermedia» MMC nəşriyyatı mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 2500